YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 avqust 2025-ci il Cümə axşamı № 137 (8747) Qiyməti 60 qəpik

Xəbər

SOS! Uşaqlarımızı pedofillərdən necə qoruyaq?

yazısı səh.11-də

ƏLİYEVLƏ PAŞİNYAN AĞ EVDƏ - RUSİYADAN TƏXRİBAT HAZIRLIĞI

Azərbaycan və Ermənistan liderlərinin Trampla görüş qrafiki açıqlandı; Kreml sülhü əngəlləmək üçün hərəkətə keçir - rəylər



yazısı səh.3-də

Gündəm

12 günlük müharibənin "dərsi" - Azərbaycan Ordusu tətikdə



Hərbi ekspert "boşluqlar"dan danışdı; Rusiya və İranın apardığı savaşlar...

yazısı səh.5-də

İrandan gecikmiş Zəngəzur təklifi - Bakı o modelə çoxdan razılıq verib

yazısı səh.4-də

Rusiyadan acı etiraf: "İqtisadiyyatımız çökəcək..."

yazısı səh.6-da

Ukrayna üçün Qarabağ ssenarisi - İlham Əliyevin o tarixi çağırışı

yazısı səh.9-da

Bir sorğunun ilginc nəticəsi: Azərbaycanla düşmənçiliyə davam?

yazısı səh.9-da

Restoranlarda "kefimiz belə istəyir" haqq-hesabı: fantastik qiymətlər

yazısı səh.13-də

Tibbi arayış böhranı: körpələrlə növbə dərdi -

yazısı səh.11-də

Bahalı ətin şorbası - qiymətə dövlət müdaxiləsi qaçılmaz ola bilər

yazısı səh.13-də

DYP-dən avtomobilin nömrəsini gizlədənlərə xəbərdarlıq

yazısı səh.2-də

"Qarabağ"ı Çempionlar Liqasından 3, Avropa Liqasından 1 addım ayırır

yazısı səh.15-də

Təbrizin imam cüməsinin Azərbaycan təlaşı - məzhəb təbliği caizmi?

yazısı səh.12-də

"Kontakt Home"dan şikayətlər artır - mağazalar şəbəkəsi boykota çağırıldı

İstehlakçı hüquqlarının müdafiəçisi əhaliyə səsləndi: "Aldanmaq istəmirsinizsə..."


yazısı səh.14-də



Roben Vardanyan

Kremlin Qarabağdakı "desantı"nın alacağı cəza


yazısı səh.8-də



Nizami İsmayılov

İllərlə axtarılan müğənninin 30 il sonra üzə çıxan taleyi

yazısı səh.15-də



Putin bu türk qızını xilas edə bilmədi

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 137 (8747) 7 avqust 2025

Avtomobilin nömrəsini gizlədənlərin nəzərinə!



Azərbaycan və Pakistan HDQ komandanları görüşdü

Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı 1-ci dərəcəli kapitan Şahin Məmmədovla Azərbaycanda səfərdə olan Pakistan HDQ komandanı admiral Navid Əşrəf arasında görüş keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Rəsmi qarşılanma mərasimində HDQ komandanları fəxri qarovul dəstəsinin önündən keçiblər. Hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Pakistan nümayəndə heyəti Ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyaraq xatirəsinə ehtiram nümayiş etdirib.

Görüş zamanı Azərbaycan və Pakistan HDQ-lərinin qarşılıqlı əlaqələrinin inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb, döyüş gəmilərinin heyətləri arasında təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti vurğulanıb və bir sıra digər məsələlər müzakirə olunub.

Daha sonra HDQ bazasını ziyarət edən pakistanlı qonaqlar üçün təşkil edilmiş brifinqdə Azərbaycan HDQ-sinin strukturu, əməliyyat imkanları, Xəzər dənizinin Azərbaycana aid sektorunda fəaliyyəti, şəxsi heyət üçün yaradılmış şərait, təlim-tədris prosesi, eləcə də xidməti-döyüş fəaliyyətinin təşkili barədə ətraflı məlumat verilib.

Səfər çərçivəsində Pakistan nümayəndə heyəti həmçinin HDQ-nin "N" saylı hərbi hissəsində olub. Hərbi hissə ilə tanışlıqdan sonra qonaqlar dəniz xüsusi təyinatlılarının nümunəvi çıxışını izləyiblər.

Yardımlıda narkokuryerlər həbs edildi

Yardımlı Rayon Polis Şöbəsinin əməkdaşlarının narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışına qarşı keçirdikləri növbəti əməliyyat tədbirləri nəticəsində 32 yaşlı Məhburə Əsgərli saxlanılıb.

DİN-in mətbuat xidmətinin Lənkəran regional qrupundan APA-nın cənub bürosuna verilən məlumata görə, ondan 3 kiloqram marixuana aşkarlanaraq götürülüb.

Əməliyyat tədbirlərinin davamı nəticəsində onun narkotik vasitəni əldə etdiyi şəxsin əvvəllər məhkum olunmuş 43 yaşlı Natiq Mirzəyev olduğu müəyyən edilib və o, polis əməkdaşları tərəfindən saxlanılıb.

N.Mirzəyevin Yardımlı rayonu ərazisində yerləşən yaşadığı evin yaxınlığındakı yarımtikilidə gizlətdiyi 3 kiloqram marixuana aşkarlanaraq götürülüb. Araşdırmalarla onların İran vətəndaşı tərəfindən narkokuryerliyə cəlb olunduqları və narkotikləri maddi gəlir qarşılığında paytaxt ərazisindəki ayrı-ayrı ünvanlara çatdırmağı planlaşdırdıqları müəyyən edilib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Şahin Mustafayev İrana gedəcək

Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev yaxın zamanda İrana səfər edəcək.

APA İran mediasına istinadən xəbər verir ki, bu səfərin məqsədi müştərək layihələrin icrası ilə bağlı vəziyyətlə tanış olmaqdır.

Bundan başqa, Şahin Mustafayev İran rəsmiləri ilə iki ölkənin İqtisadi Əməkdaşlıq üzrə birgə Komissiya çərçivəsində Azərbaycan və İran arasında iqtisadi tərəfdaşlıq mövzularını müzakirə edəcək və ehtimal edilən maneələrin aradan qaldırılması istiqamətində fikir mübadiləsi aparacaq.

"İmişli" qanalı futbolçunu transfer etdi

"İmişli" heyətinə yeni futbolçu qatıb. QOL.az xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Bölgə təmsilçisi Yav Mozesi transfer edib. 26 yaşlı yarımmüdafiəçi ilə 2 illik müqavilə imzalanıb. Qanalı futbolçunun son klubu "Torrense" (Prtuqaliya) olub.

Qeyd edək ki, "İmişli" bunadək Xorxe Kaskilya (baş məşqçi), Ronaldo Rodriqez de Souza (son klubu "Borneo", İndoneziya), Azər Salahlı (son klubu "Neftçi"), İbrahim Əliyev (son klubu MOİK), İmam Əli, Rafael Vieqas ("Sao Joao de Ver", Portuqaliya), Hüseynəli Quliyevi ("Səbail"), Ezekiel Morqan (son klubu "Karvan"), Nikola Karaklayiç (son klubu "Novi Pazar", Serbiya), Luiz Fernando Silvestr Junioru sıralarına cəlb edib.



Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə müraciət edib. Müraciətdə deyilir: "Son zamanlar Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən aparılan müşahidələr zamanı xüsusilə magistral yollarda və hərəkət intensivliyi yüksək olan ərazilərdə bəzi sürücülərin nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarını örtüklə, parça və ya digər vasitələrlə gizlətməsi hallarına daha tez-tez rast gəlinir.

Bu cür halların əsas məqsədi sürücülərin radar və digər texniki nəzarət vasitələrindən yayınması, tərədilən qayda pozuntularını qeydə alınmaz vəziyyətə gətirməyə çalışmasıdır. Lakin unutmaq olmaz ki, bu cür davranış yalnız inzibati hüquq pozuntusu deyil, həm də cəmiyyətin təhlükəsizliyinə qarşı yönəlmiş məsuliyyətsiz bir addımdır.

Yol hərəkətində şəffaflıq və təhlükəsizlik prinsiplərinə ciddi zərbə vuran bu cür hallara qarşı Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən nəzarət tədbirləri gücləndirilib, xüsusi texniki vasitələrin köməyi ilə qeydiyyat nişanlarını qəsdən gizlədən sürücülərin müəyyən edilərək məsuliyyətə cəlb olunması təmin edilir. Baş Dövlət Yol Polisi İdarəsi bir daha sürücüləri qanunlara əməl etməyə, nəqliyyat vasitələrinin qeydiyyat nişanlarının üzərinə müdaxilə etməməyə çağırır.

Unutma! Qanuna hörmət - təhlükəsizliyə və cəmiyyətə hörmətdir".

Bu gün 41 dərəcə isti olacaq



Avqustun 7-də gözlənilən hava şəraiti açıqlanıb. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olacaq.

Havanın temperaturu gecə 25-29, gündüz 35-40 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 mm civə sütunu, nisbi rütubət isə gecə 70-80%, gündüz 40-45% təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər bəzi arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 23-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək isti, dağlarda gecə 16-21, gündüz 28-33 dərəcə isti olacaq.

Xocalıda 17 yaşlı şəxs saxlanıldı



Avqustun 6-da Xocalı şəhəri ərazisində Badara çayının sahilində yanğın hadisəsi törədən şəxs polis əməkdaşları tərəfindən müəyyən olunub.

DİN-in mətbuat xidmətinin regional qrupundan APA-ya bildirilib ki, araşdırmalarla yanğının Xocalı rayonunda qonaq olan 2008-ci il təvəllüdlü Maarif Mirzəyevin ərazidə yandırdığı ocaqla ehtiyatsız davranması nəticəsində baş verdiyi məlum olub. Hadisə nəticəsində təxminən 40-50 hektar sahədə biçilmiş əkin sahəsi və kol-kos yanıb. M.Mirzəyev məsuliyyətə cəlb olunub.

"FHN və DİN bir daha diqqətə çatdırır ki, açıq ərazilərdə ocaq qalamaq və ya tüstülənməyə səbəb ola biləcək hərəkətlərə yol vermək, xüsusilə də yay mövsümündə ciddi ekoloji və təhlükəsizlik riskləri yaradır. Bir anlıq məsuliyyətsizlik on hektarlarla sahəni məhv edə, təbiətə, kənd təsərrüfatına və insanlara böyük ziyan vura bilər. Vətəndaşlar bu hallara səbəb olacaq əməllərdən çəkinməli, təhlükəsizlik qaydalarına əməl etməlidir", - məlumatda deyilir.

Azərbaycanın federasiya prezidenti qəfil öldü

Azərbaycan Karate-Do Federasiyasının prezidenti Arif Məmmədov Gürcüstanda vəfat edib.

Teleqraf-ın Qərb bürosu xəbər verir ki, o, qonşu ölkəyə istirahətə gedib və qaldığı hoteldə səhhəti qəfil pisləşərək komaya düşüb. Həkimlərin müdaxiləsinə baxmayaraq, A.Məmmədovun həyatını xilas etmək mümkün olmayıb. Onun nəşinin ölkəmizə gətirilməsi üçün hazırlıq görülür.

Qeyd edək ki, əslən Gəncə şəhərindən olan A.Məmmədov karate üzrə 3 qat dünya və 5 qat Avropa çempionudur. Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın sədr müavini olub.

Kəlbəcərdə mina terroru

Kəlbəcərin Vəng kəndi ərazisində mina partlayıb. Hadisə nəticəsində 5 nəfər xəsarət alıb. Hadisə zamanı "Ural"markalı avtomobil tank əleyhinə minaya düşüb. "Unikal" bildirir ki, bu zaman avtomobildə olanlar - 29 yaşlı N.Nuruyev, 29 yaşlı M.Qarayev, 42 yaşlı R.İsmayılov, 38 yaşlı E.Əhmədov xəsarət alıblar. Onlar yaxınlıqdakı hərbi hospitala yerləşdiriliblər.

Yaralılara dərhal yardım edilib. Hazırda vəziyyətlərinin orta-ağır olduğu bildirilir. Hadisə yerinə adiyyatı qurumların əməkdaşları cəlb edilib. Qeyd edək ki, minaya düşən "Ural" markalı avtomobil Azərbaycan Ordusuna məxsusdur. Xəsarət alanların hamısı hərbçidir. Faktla bağlı araşdırma aparılır.

Ağstafada avtomobil piyadanı öldürdü

Ağstafada piyadanın ölümü ilə nəticələnən qəza baş verib. "Unikal"ın məlumatına görə, hadisə rayonun Köçəsgər kəndinin ərazisində baş verib. Hərəkətdə olan "KİA" markalı minik maşını yolu keçmək istəyən orta yaşlı qadını vurub. Piyada hadisə yerində ölüb. Hadisə yerinə DYP əməkdaşları cəlb edilib. Fakt araşdırılır.

YENİ MÜSAVAT
N 137 (8747) 7 avqust 2025



Əliyevlə Paşinyan Ağ Evdə - əsas gözlənti

Azərbaycan və Ermənistan liderlərinin Trampla görüş qrafiki açıqlandı; Vaşinqtonda memorandum imzalanacaq?

ABŞ Prezidenti Donald Tramp cümə günü Azərbaycan və Ermənistan liderləri ilə görüşməyi planlaşdırır. "Yeni Müsavat" xəbər verir ki, Birləşmiş Ştatlar rəhbərinin iş qrafikindən belə bəlli olur. Dərc olunan proqrama əsasən, Ermənistanın baş nazirinin qəbulu avqustun 8-nə, saat 14:30-a təyin edilib. Vaşinqton vaxtı ilə Azərbaycan rəhbəri ilə danışıqlar saat 15:20-də başlayacaq. Həmin gün saat 16:00-da D.Tramp, Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı gözlənilir.

İ.Əliyev və N.Paşinyanın Vaşinqtonda Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi ilə bağlı memorandum imzalayacaqları gözlənilir.

Musavat.com xəbər verir ki, görüşün məqsədi tərəflər arasında uzun illər davam edən münaqişəyə son qoyacaq sülh sazişinin əldə olunmasıdır. Məlumatı "The Washington Post" qəzeti Ağ Evdəki iki yüksək vəzifəli məmura istinadla yayıb.

Sonuncu görüş iyul ayında Birləşmiş Ərəb Əmirliklərində baş tutmuşdu. Bu dəfə isə Trampın şəxsi təşəbbüsü ilə Vaşinqtonda keçiriləcək zirvə sülhün imzası üçün real imkan kimi qiymətləndirilir. Məqalədə qeyd olunur ki, ABŞ prezidenti bu görüşlə beynəlxalq konfliktlərin həllində vasitəçi rolunu daha da gücləndirmək və dünya liderlərinin ona bəxş etdiyi Nobel Sülh Mükafatı namizədliyini möhkəmləndirmək niyyətindədir.

AZƏRTAC da yayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin avqustunda 6-da ABŞ-a səfəri gözlənilir. Agentlikdə dərc edilən məqalədə deyilir ki, İlham Əliyevin ABŞ-a səfəri yalnız Azərbaycan-Amerika ikitərəfli münasibətləri baxımından deyil, həm də regional sabitlik və qlobal təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət kəsb edir.

"Prezidentlər arasında yüksəksəviyyəli danışıqlarda siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsi, enerji və nəqliyyat layihələri üzrə strateji tərəfdaşlığın möhkəmləndirilməsi, eyni zamanda Cənubi Qafqazda sülh prosesinin irəlilədilməsi kimi məsələlərin müzakirə olunacağı gözlənilir. Səfər həmçinin Azərbaycanın beynəlxalq nüfuzunun artması və regionda balanslı, eyni zamanda proaktiv xarici siyasət kursunun davam etdirilməsi baxımından mühüm mərhələ kimi dəyərləndirilməlidir. Tərəflər arasında konkret razılaşmalar əldə ediləcəyi təqdirdə, bu, həm regional sabitlik və dayanıqlı əməkdaşlıq üçün yeni imkanların yaranmasına, həm də ABŞ-Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçməsinə səbəb ola bilər.

Səfərin strateji əhəmiyyətini müəyyən edən əsas məqamlardan biri də onun iki əsas istiqamət üzrə formalaşmasıdır: bir tərəfdən Azərbaycan və ABŞ arasında ikitərəfli siyasi, iqtisadi və təhlükəsizlik əlaqələrinin dərinləşdirilməsi, digər tərəfdən isə Azərbaycanla Ermənistan arasında davam edən sülh gündəliyinin müzakirəsi", - məqalədə bildirilir.


Ermənistanın Baş naziri Nikol Paşinyan isə 7-8 avqust tarixlərində ABŞ-a səfər edəcək. Bu barədə Ermənistan hökumətinin mətbuat xidməti məlumat yayıb.

Analitik Elxan Şahinoğlunun fikrincə, vaxtilə Qarabağ məsələsi ilə məşğul olan 3 həmsədrdən ikisi - Rusiya və Fransa müxtəlif səbəblərdən məkan kimi seçilə bilməz. Onun sözlərinə görə, görünür, Vaşinqton yaranan fürsətdən öz xeyrinə istifadə etməyə çalışır: "Təsadüfi deyil ki, Tramp iyulun 18-də amerikalı senatorlarla şam yeməyində "Ermənistan, Azərbaycan, biz orada möcüzə yaratdıq və artıq məqsədə yaxınıq" ifadəsini işlətmişdi. Yəni Tramp bununla demək istəyirdi ki, sülh sazişinin hazırlanmasında və tərəfləri bir-birinə yaxınlaşdırmaqda onun administrasiyasının da payı var. Halbuki Bakı və İrəvan bu günə qədər danışıqlarda nə əldə ediblərsə, bu birbaşa dialoq və müzakirələr nəticəsində baş tutub. Buna baxmayaraq, Bakı və İrəvan Tramp administrasiyası ilə yaxşı münasibətlərə ümid bəslədiklərindən Ağ Ev sahibinin rolunu kiçildən açıqlama verm ədilər".

Politoloq hesab edir ki, Ukrayna müharibəsində, o cümlədən Yaxın Şərq sülh prosesində uğur qazana bilmir, ona belə vəziyyətdə fərqli uğur hekayəsi lazımdır. Bu da Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin sülh sazişini imzalamaları və ya paraflamaları ola bilər.

❑ **Hazırladı: Əmil SALAMOĞLU, "Yeni Müsavat"**

Ermənistanda panika: Trampla görüşdən sonra... - Moskvanın ilginc təxribat planı



Ağ Evdə Azərbaycan və ABŞ liderləri - İlham Əliyev, Donald Tramp və Ermənistan baş naziri Nikol Paşinyan arasında üçlü görüşü hələ olmayıb, erməni revanşist-radikallar artıq isterikadadır. Guya Paşinyan ABŞ-a Azərbaycanla daha bir təslimçi sənəd imzalamağa, "milli maraqları bir daha satmağa" gedir.

Nəymiş bu təslimçilik? Sən demə, Azərbaycanın ərazi bütövlüyünü, Qarabağın onun tərkib hissəsi olduğunu Amerikanın da zamin duracağı konkret sənədlə rəsmən tanımaq, "artsax"ı gündəmdən həmişəlik çıxarmaq. Xülasə, 29.7 kv km-lik "real Ermənistan" qurmaq üçün yeni real şans əldə eləmək.

Görəsən, bunun nəyi satqınlıq və ya erməni maraqlarına xəyanətdir? Doğrudanmı hay toplumu müharibələrdən bezməyib, yorulmayıb? Gerçəkdənmi ermənilər zillət içində yaşamaqdan "zövq" alırlar?..

Hərgah GELLUP-un son rəy sorğularını ciddiyə alanda nikbinliyə əsas qalmır. Həmin sorğularda respondentlərin yarıdan çoxu Azərbaycan və Türkiyə ilə barışığa və Bakının tələbi ilə konstitusiya dəyişikliyinə qarşı çıxmışdı.

Bu da ilk növbədə revanşist-separatçı zümrə daxil, Ermənistandakı "müharibə partiyası"nın, bir də onları himayə edən Rusiyanın imperiya maraqlarına cavab verir. O Rusiya ki, Ağ Evdəki üçlü görüş və imzalanacaq hansısa sənəddən ən çox tələş keçirən tərəf olacaq...

Deməli, bu günlərdə Moskvanın "dobro"su ilə bölgədə, şərti sərhəddə və ya Azərbaycanın maraqları olan digər coğrafiyada təxribatlar istisna deyil. Ehtiyatlı olmalıyıq. Hətta Kreml "komanda"nı artıq verib: Rusiya işğalçı ordusu Ukraynada Azərbaycanın qaz tədarükü üçün istifadə etdiyi mühüm enerji infrastrukturuna - Orlovka" kompressor stansiyasına hava zərbəsi endirib. Bu, həm də ABŞ-a, Trampa və Paşinyana siqnaldır.

"Rossotrudniçestvo" isə Qarabağı könüllü tərk etmiş ermənilərin şəxsi məlumatlarını toplamağa başlayıb. Ermənistan hökumətindəki mənbələrin bildirdiyinə görə, onlardan pasport, doğum haqqında şəhadətnamə və digər sənədlərin surətini təqdim etmək tələb olunur. Məlumatların toplanması humanitar yardım bəhanəsi ilə həyata keçirilir.

Ancaq zərrəcə şübhə yox ki, niyyət bambaşqadır. Hədəf - Paşinyanı belə maraqlandırmayan erməni separatizminə yeni "nəfəs" vermək, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasını hər vəchlə əngəlləmək, mümkün olarsa, iki qonşu ölkəni yeni müharibəyə sürükləmək və sonra da "arbitr" kimi araya girib onu dayandırmaqdır.

Az öncə Moskvanın Gümrü hərbi bazasına sürəkli hərbi yük daşıması və Ermənistanda çevriliş hazırlığı içində olduğu haqda məlumatlar yayılmışdı. Qısası, bu günlər işarəni "şimaldan" gözləməyə dəyər...

Unutmayaq, Putin başda olmaqla, Rusiya rəhbərliyi Paşinyanın Qarabağı Azərbaycanın ayrılmaz hissəsi saymasını bu günədək ona bağışlamayıb. Çünki həmin qərarla Kremlin Azərbaycan və Ermənistana qarşı ənənəvi "Qarabağ kartı" faktiki kəsərdən düşüb.

Əgər indi üstəlik, Ağ Evdə iki xalq arasında düşmənçilik səhifəsini çevirməyə yönəlik konkret sənəd və ya niyyət memorandumu da imzalanancaqsa, bu, Moskvanın Güney Qafqazla bağlı avantürist planlarına növbəti ağır zərbə olacaq.

Bir şey kifayət qədər aydındır: bölgə olduqca həssas və tarixi bir mərhələyə girir, Kreml sonuncu "patronlarını" atmağa hazırlaşır...

❑ **Z.SƏFƏROĞLU**

Rusiya bizim qaz ötürmə marşrutunu vurdu - savaş qızışdı!

Rusiya ordusu Ukraynada Azərbaycanın qaz tədarükü üçün istifadə etdiyi mühüm enerji infrastrukturuna hava zərbəsi endirib.

Musavat.com xəbər verir ki, hücum, Odessa vilayətində yerləşən və Azərbaycan qazının Ukraynaya çatdırılmasında tranzit rolu oynayan "Orlovka" kompressor stansiyasını hədəfə alıb.

Məlumatı Rusiya və Ukrayna mənbələri təsdiqləyib. Hücum zamanı istifadə edilən silahların "Geran" tipli kamikadze dronları və qanadlı raketlər olduğu bildirilir. Zərbə nəticəsində stansiyada ciddi dağıntılar baş verib, qaz təchizatının bir hissəsi dayandırılıb.

Bu infrastruktur məhz Azərbaycan qazının Ukraynaya çatdırılması üçün nəzərdə tutulmuş Trans-Balkan marşrutunun bir hissəsidir. Bu marşrut Türkiyə, Bolqarıstan və Rumıniya ərazilərindən keçməklə Azərbaycan qazını Ukraynanın daxili bazarına ötürməyə imkan verir. Pilot layihə bir neçə həftə əvvəl işə salınıb və Ukrayna bu ixracatı enerji təhlükəsizliyinin artırılması istiqamətində strateji addım kimi qiymətləndirib.



Rusiya mediası bu hücumu təsadüfi deyil, simvolik xarakter daşıyan siyasi siqnal kimi təqdim edir. Moskvanın fikrincə, Bakı-Kiyev enerji əməkdaşlığı, xüsusən də "Kremlə xəbər verilmədən" həyata keçirilən bu tədarük zənciri Moskvanı narazı salıb. "MK.ru" nəşrinin yazdığına görə, bu zərbə ilə Rusiya "Azərbaycan yanlış marşrut seçdi" mesajı göndərmək istəyib.

Analitiklər bildirir ki, bu hücum Ukrayna-Azərbaycan enerji əlaqələrinə birbaşa təhlükə yaradıb. "Bu, sadəcə, enerji obyektinə zərbə deyil, həm də Bakı-Kiyev münasibətlərinə qarşı yönəlmiş açıq təzyiq aktıdır," - deyə ekspertlər vurğulayır.

Mövzunun diqqətçəkən cəhətlərindən biri də budur ki, hücum zamanı sıradan çıxarılan "Orlovka" stansiyası təkcə Ukrayna üçün deyil, həm də Trans-Balkan regionu üçün kritik əhəmiyyətə malikdir. Hücumun nəticələri təkcə Kiyevi deyil, Avropanın qaz siyasətini də çətin duruma sala bilər.


Azərbaycan tərəfi hələlik rəsmi olaraq bu məsələ ilə bağlı açıqlama verməyib. Lakin müşahidəçilər hesab edir ki, bu cür addımlar Azərbaycanla Rusiya arasında artan gərginliyin yeni fazaya keçdiyini göstərir.

Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya ordusunun Odessa vilayətində yerləşən qaz stansiyasına endirdiyi raket zərbəsini sərt şəkildə pisləyib.

Zelenski qeyd edib ki, bu kimi hücumlar Ukraynanın mülki əhalisinə qarşı aparılan enerji terrorunun bir hissəsidir və beynəlxalq ictimaiyyətin daha sərt reaksiya verməsini zəruri edir.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 137 (8747) 7 avqust 2025



ABŞ rusların hipersonik raketlərini Aydan vuracaq - fantastika reallıq olur

ABŞ Kosmik Agentliyi NASA Ayın səthində nüvə reaktoru qurmaq planını sürətləndirir. Bu addım sadəcə elmi layihə deyil, bəşəriyyəti kosmosda yeni soyuq müharibəyə aparan təhlükəli bir ssenari işə salınıb.

Musavat.com xəbər verir ki, bu haqda "Politico" nəşri yazıb. NASA rəhbərliyi açıq şəkildə Çin və Rusiyanın eyni planlar qurduğunu bildirir. Bu isə o deməkdir ki, Ayda nüvə reaktorları yalnız enerji deyil, gələcəkdə hərbi bazaların əsas infrastrukturu olacaq. Amma ən qorxunc sual budur: Ayda nüvə enerjisi ilə işləyən obyektlər yalnız araşdırma məqsədi daşıyacaq? Yoxsa burada raket sistemləri, kosmik silahlar və hətta yeni müharibə texnologiyalarının sınaq meydanı qurulacaq?

Hərbi şərhçi Ramil Məmmədli Musavat.com-a deyib ki, ABŞ-ın Ayda nüvə reaktoru planı yeni bir mərhələnin başlanğıcıdır: "Bu layihə ilə ABŞ kosmosda strateji üstünlük qazanmaq istəyir. Ayda nüvə reaktoru qurmaq, gələcəkdə orada daimi hərbi-siyasi baza yaratmaq deməkdir. Çin və Rusiyanın da bu yarışda olması göstərir ki, Ay artıq yeni qarşıdurma meydanıdır. Bu, kosmosun militarizasiyasıdır".

Hərbi şərhçi qeyd edib ki, ABŞ-ın Ayda nüvə reaktoru planı Rusiyanın və Çinin yaratdığı yeni təhlükələrə də cavabdır: "Rusiya "Kinjal", "Avanqard" və "Zirkon" kimi hipersonik raketlərlə ABŞ və NATO üçün ciddi strateji risk yaradıb. Bu raketlər çox sürətli və manevrli olduqları üçün Yer üzündə qurulan ən müasir hava və raketdən müdafiə sistemlərini dəf edə bilir. ABŞ isə bu təhlükəyə cavabı kosmosdan vermək istəyir. ABŞ orbitdə lazer silahları və yüksək enerjili müdafiə sistemləri yerləşdirəcək. Bu texnologiyalar üçün fasiləsiz və güclü enerji lazımdır. Ayda qurulacaq nüvə reaktoru məhz bu ehtiyacı ödəyəcək. Məqsəd orbitdən Rusiyanın və Çinin hipersonik raketlərini hədəfə çatmadan məhv etməkdir".

R.Məmmədli qeyd edib ki, bu yarış nəzarətsiz qalarsa, Yer üzündəki münaqişələr kosmosa da daşına bilər".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
Musavat.com

İrandan gecikmiş Zəngəzur təklifi - Bakı o modelə çoxdan razılıq verib

Cənub qonşumuz ipə-sapa yatmaqdadır; rəsmi Tehran başa düşür ki, gec-tez Zəngəzur dəhlizi onun iradəsindən kənar açılacaq



İranın "Tasnim" agentliyi Zəngəzur dəhlizi barədə geniş yazı ilə çıxış edib. Tribunainfo.az xəbər verir ki, yazıda Zəngəzur dəhlizi ətrafında baş verənlərdən, Azərbaycan və Ermənistanın istəklərindən geniş bəhs olunur.

Həmçinin müəllif bu mövzuda tərəflər arasındakı fikir ayrılıqları, Rusiyanın rolu məsələsinə də toxunub. Agentlik məqaləsində iddia edib ki, 10 noyabr razılaşması Rusiyaya açılacaq istənilən dəhlizdə monitorinq aparmağa imkan verəcək. Çıxış yolu kimi Kaliningrad modeli önə çəkilir: "Görünür, bu mövzuda anlaşma əldə etməyin yollarından biri Kaliningrad modelidir. Həmin modellə bağlı razılaşma olarsa, Rusiya ilə Litva arasındakı anlaşmaya bənzər saziş imzalana bilər".

Qeyd edək ki, Rusiyanın Ukraynadakı müharibəsi kontekstində belə Rusiya və Kaliningrad vilayətinin sakinləri Litva ərazisindən rahat keçirlər. Bəs Kaliningrad modeli nədir?

"Kaliningrad modeli" ifadəsi 4 ölkə - Litva, Polşa, Belarus və Rusiya (Kaliningrad vilayəti) arasında yerləşən, Kaliningradla Belarusu birləşdirən təxminən 100 km-lik Suvalk dəhlizidir. "Soyuq müharibə" zamanı bu dəhlizin elə bir ciddi əhəmiyyəti yox idi. Çünki Litva, Belarus və Kaliningrad SSRİ ərazisi, Polşa isə sosialist ölkəsi idi. Ona görə də bu ərazidən istifadə üçün hansısa sazişdən, icazədən istifadəyə gərək yox idi. "Soyuq müharibə" başa çatdıqdan, SSRİ-nin dağılması ilə müstəqil dövlətlərin yaranmasından sonra bu dəhlizin əhəmiyyəti artmağa başladı.

90-cı illərdə Rusiya ilə Litva arasında dəhliz səbəbindən müəyyən gərginliklər yarandı. Xüsusilə Rusiya bu yola eksterritoriallıq tələb edirdi. Nəticədə Litva Rusiyaya yalnız malların sərbəst keçidinə icazə vermişdi. 2003-cü ildə Rusiya və Litva arasında sadələşdirilmiş tranzit mexanizmləri haqqında saziş əldə edildikdən sonra Rusiyanın nəqliyyat vasitələri dəhlizdən sərbəst keçməyə başladı.

Sonuncu dəfə bu məsələni Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyev Antalyada keçirilən diplomatik forumda qaldırıb və bunu potensial həll yolu adlandırıb. Həmin vaxt Hikmət Hacıyev bildirib ki, Azərbaycan Naxçıvana çıxışı asanlaşdırmaq istəyir və bununla bağlı müxtəlif modelləri müzakirə edir. Xüsusilə o, beynəlxalq hüquq və beynəlxalq siyasət üzrə israilli mütəxəssis Maykl Finkelin 2021-ci ildə təklif etdiyi "Kaliningrad modeli"nə toxunaraq, onu potensial həll yolu adlandırıb. Ermənistan rəsmiləri hələ ki buna müvafiq cavab verməyib.

Naxçıvanla əlaqə üçün "Kaliningrad modeli" mümkündürmü? İranı bu mexanizm qane edirmi?

Siyasi ekspert Qulamhüseyn Əlibəyli "Yeni Müsavat"a bildirdi ki, Zəngəzur dəhlizi təkcə iqtisadi deyil, həm də mühüm geosiyasi əhəmiyyət kəsb edir və bütövlükdə Türk dünyasını, Şərqlə Qərbi birləşdirən kommunikasiya xəttidir: "Buna görə də Azərbaycan və Türkiyə tezliklə bu dəhlizin açılmasına çalışır. Bu dəhlizin açılması üçün müzakirə olunan modellərin içəricində şərti olaraq "Kaliningrad modeli" deyilən model də diqqəti çəkir. Düzdür, Zəngəzur dəhlizi ilə "Kaliningrad modeli" adlandırılan Suvalk dəhlizini tam eyniləşdirmək düzgün deyil. Suvalk dəhlizi Rusiyanın eksklavı olan Kaliningrad şəhərini və vilayətini iki dövlətin (Litva və Polşa) ərazisindən keçməklə Belarus vasitəsilə Rusiya ilə birləşdirir.

İlk baxışdan Zəngəzur dəhlizi də oxşar funksiyanı yerinə yetirəcək kimi görünür. Yəni Azərbaycanı Naxçıvanla birləşdirəcək. Lakin bu, zahiri oxşarlıqdır. Mahiyyət etibarilə Zəngəzur dəhlizi Azərbaycanı və Orta Asiyanın türk dövlətlərini Türkiyə ilə birləşdirəcək və bütövlükdə Asiyanı Rusiyadan kənar Avropa ilə birləşdirəcək. Ona görə də həm Avropa dövlətlərinin, həm Rusiyanın, Çinin və Hindistanın, həm də ABŞ-ın bu dəhlizə maraqları böyükdür və bu da dəhliz uğrunda geosiyasi savaşı gücləndirir. Kommunikasiya dəhlizinin "Kaliningrad modeli" eksterritorial statusuna malik olmasa da, Rusiya ilə onun eksklavı arasında sadələşdirilmiş tranzit mexanizmi olan kommunikasiya xəttidir və Rusiyanın nəqliyyat vasitələrinin dəhlizdən sərbəst keçməsini nəzərdə tutur. Bu baxımdan Azərbaycanın nəqliyyat vasitələrinin maneəsiz, sərbəst keçidini təmin etmək üçün bu modelin və ya onun daha da təkmilləşdirilmiş mexanizminin Zəngəzur dəhlizinə tətbiqi mümkün görünür və prezidentin köməkçisinin də məhz bunu nəzərdə tutduğu şübhəsizdir. Yəni Azərbaycan nəqliyyat vasitələrinin Zəngəzur dəhlizindən maneəsiz, sərbəst keçidini təmin edən bir modelin Zəngəzur dəhlizinə tətbiqinə tərəfdardır".

Q.Əlibəyli onu da vurğuladı ki, Zəngəzur dəhlizinə hansı modelin tətbiqi təkcə Azərbaycandan asılı deyil, Ermənistan da bu modelə tərəfdar olmalıdır: "Ermənistan müxtəlif bəhanələrlə bu məsələyə dair konkret mövqe bildirmir. Gah "sülh kəsişməsi" adlı layihə irəli sürür, gah da dəhlizin açılması haqqında pafoslu bəyanatlar versə də, konkret iş görməkdən yayınır. İran isə məhz Azərbaycan və Orta Asiyanın türk dövlətlərini birləşdirdiyi üçün Zəngəzur dəhlizinin açılmasının əleyhinədir. İran rəsmiləri dəfələrlə Zəngəzur dəhlizini Ermənistanın və İranın maraqlarına zidd hesab edərək, bir növ özlərinin "qırmızı xətti" elan ediblər. İranın ali dini rəhbərinin müşavirinin və Ermənistandakı səfirinin bu yaxınlardakı açıqlamaları bunu bir daha təsdiq edir. Ona görə də Zəngəzur dəhlizinə hansı modelin tətbiqi İran üçün bir o qədər də əhəmiyyət kəsb etmir. Lakin "Tasnim" agentliyinin dərc etdiyi yazı rəsmi Tehranın mövqeyinin dəyişməsinin simptomu kimi qəbul edilə bilər. Görünür, İran rejimi başa düşür ki, Zəngəzur dəhlizi onun iradəsindən kənar gec-tez açılacaq. Ona görə də həmin dəhlizdən heç olmasa iqtisadi cəhətdən yararlanmaq niyyətindədir. Agentliyin yazısı da bu niyyətin anonsu kimi qiymətləndirilə bilər".

Politoloq Rəşad Bayramovun fikrincə, İranın Zəngəzur dəhlizi ilə bağlı loyallığı çarəsizlikdən irəli gələn addımdır: "Məlumdur ki, haqqında danışılan Kaliningrad modeli 2021-ci ildən gündəmdədir və zaman-zaman geniş şəkildə müzakirə olunur. Bu model Litva və Rusiya arasında imzalanmış sazişə uyğun olaraq olduqca uğurlu şəkildə tətbiq olunur. "Kaliningrad modeli", yəni 100 kilometrlik Suvalk dəhlizi özündə hər hansı eksterritorialığı da ehtiva etmədiyi üçün əslində bütün maraqlı tərəflərin tələblərinə cavab verir. Bu model Ermənistanda dəhliz əleyhidarlarının da, İranın da arqumetlərini tamamilə ortadan qaldırır. Yəni Azərbaycanın əsas hissəsi ilə Naxçıvana sərbəst, hər hansı yoxlama və rüsum tətbiq edilmədən sərnişinlərin və yüklərin hərəkətinin təmin olunması özündə hər hansı sərhəd dəyişikliyini ehtiva etmir. Məsələ burasındadır ki, rəsmi Bakı da, Ankara da uzun müddətdir ki, dəhlizin Azərbaycandan-Azərbaycana prinsipi ilə açılmasının hər hansı sərhəd dəyişikliyi olmadığını dəfələrlə İran tərəfinin diqqətinə çatdırıb. Və İran da əslində məsələnin heç də onların təqdim etdikləri kimi olmadığını bilir. Amma uzun müddətdir ki, dəhlizin açılmaması üçün İrəvana təzyiq edir və bunu gizlətmir də. İran rəsmiləri dəhlizin açılmasına biz imkan vermədik deyərək özlərinin üstün mövqelərini təlqin etməyə çalışırlar. İndi isə vəziyyətin dəyişdiyini onlar da görür və dəhlizin açılması haqqında qərarın verilməsinin qaçılmaz olduğunu anlayırlar. Ona görə də rəsmi agentlikləri vasitəsilə Kaliningrad modelini gündəmə gətirməklə özlərini sığortalamağa cəhd edirlər. Guya ki, bu yeni bir şeydir. Halbuki qeyd olunan yazıda İranın Zəngəzur dəhlizi ilə bağlı loyallığı çarəsizlikdən irəli gələn addımdır. İran dəhlizin açılacağını bildiyi üçün "bəs nə oldu, İranın istəməməsinə rəğmən dəhliz niyə açılır?" kimi suallardan yayınmaq üçün indi müvafiq yazıları tirajlamaq məcburiyyətində qalıb.

Yoxsa İran həm öz ərazisindən malların tranzitindən əldə etdiyi gəlirin azalacağı, təsir rıçaqlarını itirməsi, bölgədə Azərbaycan və Türkiyənin mövqeyinin daha da möhkəmlənməsi və ən əsası da Zəngəzur dəhlizinin açılması ilə Türk dünyasının birləşməsi qorxusu ilə sonacan dəhlizin açılmasına qarşı mövqeyində qalardı".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"

12 günlük müharibədən çıxardığımız "dərs" - kəşfiyyatın aşkarladığı "boşluqlar"

Rusiya və İranın apardığı savaşlar sığınacaqlar məsələsini gündəmə gətirib; Azərbaycan ordunun güclənməsi üçün müxtəlif addımlar atır

Xəbər verdiyimiz kimi, Türkiyənin Milli Kəşfiyyat Akademiyası 2025-ci ilin iyun ayında İran və İsrail arasında baş vermiş silahlı qarşıdurmanın nəticələrinə dair analitik hesabat yayıb. Hesabatda gələcək münaqişələrə hazırlıq məqsədilə bir sıra prioritet istiqamətlər müəyyən olunub.

Yeni Müsavat"da mövzu ətrafında bir çox vacib məqamlara toxundu: "Azərbaycan dövləti dünyada və regionda baş verən prosesləri yaxından izləyir, təhlillər aparılır. Müxtəlif istiqamətlər üzrə bu işlər görülür. Dövlət maraqlarına uyğun da addımlar atılır. Təbii ki, hansı regionda yerləşdiyimizi, qonşularımızın kim olduğunu, dünyadakı böyük dövlətlərin regionda hansı maraqlarının olduğunu yaxşı bilirik. Hansı təhdidlərin ola biləcəyini və bu təhdidlərin aradan necə qaldırılacağını bilməmiş deyilik. Hazırlanan bu hesabat çıx maraqlıdır. Günün tələblərinə cavab verir. Ümumiyyətlə, hazırda elə bir zəmanədə yaşayırıq ki, hər il, hər ay, hətta demək olar ki, hər gün yeni müasir silahlar meydana çıxır. Hərbə, təhlükəsizliyə baxış artıq dəyişib. II Qarabağ savaşı, Rusiya-Ukrayna müharibəsi, 12 günlük İran-İsrail savaşı, Pakistan-Hindistan qarşıdurması yeni texnologiyanın nə qədər önəmli olduğunu göstərdi. Zamanında elm və təhsil inkişaf etdikcə düşüncə formalaşmışdı ki, sülh və barışıq artacaq, xalqlar mehriban yaşayacaq, dinc yaşayış təmin olunacaq. Amma indi görünən odur ki, elm və texnologiyanın daha çox tətbiq edildiyi sahə hərbi sahədir. Hər bir ölkə istəyir ki, onun silahlı qüvvələrinin müəyyənləşdirir və o yöndə addımlar atır. Bir də var ki, müharibələrə qoşulmayan, ancaq öz təhlükəsizliyini təmin etmək üçün müharibələri təhlil edib, öz ölkələrinin zəif yerlərini müəyyənləşdirib və gücləndirmək yönündə addımlar atan ölkələr. Bunlardan biri də Türkiyədir. Yerləşdiyi coğrafiyaya görə Türkiyə potensial müharibəyə girə biləcək ölkələrdəndir. Türkiyə dron sahəsində ciddi uğurlar qazansa da, İran-İsrail toqquşması Türkiyənin də zəif yerlərini ortaya çıxardı. Qardaş ölkə də anladı ki, hava hücumundan müdafiə sistemlərinə, ballistik və hipersəs raketlərinə ehtiyacı var. Müharibələr təkcə ordudakı boşluqları ortaya çıxarmır. Həm də müharibə zamanı davranışları, itkilərin sayının az olması üçün atılmalı olan addımları da müəyyənləşdirir. Azərbaycan iki ağır müharibə keçsə də, 30 ilə yaxın müharibə şəraitində yaşasa da, Rusiya-Ukrayna, İran-İsrail toqquşmaları bəzi boşuqları ortaya çıxardı. Düzdür, Azərbaycan ordunun güclənməsi üçün müxtəlif addımlar atır. Bunun üçün döyüş təyyarələri, raketlər, dronlar, haubitsalar alır. Ancaq qonşularımız olan İran və Rusiyanın apardığı müharibələr onu deməyə əsas verir ki, ciddi şəkildə sığınacaqlara ehtiyac var. Köhnə sığınacaqlar bərpa edilməli, yeniləri tikilməlidir. Bundan əlavə, həyəcan siqnallarının qurulmasına ciddi ehtiyac var. Hətta deyərdim ki, bunlar qurulduqdan sonra müəyyən mənada bunun testini də həyata keçirmək lazımdır. Əgər Azərbaycana qarşı hansısa hücum olarsa, insanların necə davranacağı müəyyən deyil. Bəzən panika raketdən daha təhlükəli olur. Hesab edirəm ki, Rusiya-Ukrayna müharibəsi və İran-İsrail toqquşması ciddi şəkildə təhlil edilməli, hətta informasiya müharibəsinin necə aparıldığı da öyrənilməlidir".



Sənəddə Türkiyənin təhlükəsizlik strategiyasının əsas istiqamətləri kimi aşağıdakılar göstərilib:

* Çoxsəviyyəli hava hücumundan müdafiə sistemlərinin inkişafı

Xüsusilə alçaq hündürlükdə müdafiənin zəif olduğu vurğulanaraq, bu sahəyə xüsusi diqqət ayrılması tövsiyə olunur.

* Erkən xəbərdarlıq və sığınacaq sistemləri

Hesabatda böyük şəhərlərdə və strateji obyektlərdə erkən xəbərdarlıq infrastrukturunun yaradılması və sığınacaqların inşası zəruri hesab olunur.? Milli birliyin möhkəmləndirilməsi

Türkiyənin mümkün xarici təhdidlərə qarşı daha dayanıqlı olması üçün sosial həmrəyliyin və daxili birliyin gücləndirilməsi tövsiyə edilir.

*Radioelektron mübarizə (REM) və pilotsuz uçuş aparatlarına (PUA) üstünlük verilməsi

Sənəddə qeyd olunur ki, İranın ənənəvi silahları İsrailin dronlar və REM texnologiyaları qarşısında kifayət qədər effektli olmayıb. Bu baxımdan, Türkiyəyə bu sahələrə investisiyaların artırılması tövsiyə olunur.

* Hipersəs raketləri təhdidi

İsrailin güclü hava müdafiə sistemləri belə hipersəs silahlarının zərbələrinin tam qarşısını ala bilməyib. Türkiyəyə bu növ təhdidlərə qarşı müdafiə vasitələrinin hazırlanmasını sürətləndirmək tövsiyə olunur.

Eyni tövsiyələr Azərbaycan üçün, bizim milli təhlükəsizliyimiz üçün də keçərlidirmi?

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri, hərbi təhlilçi Emin Həsənli "Yeni Müsavat"da toqquşmalardan nəticələr çıxararaq özləri üçün prioritet sahələr müəyyənləşdirir və ordularını gücləndirir. Azərbaycanın apardığı 44 günlük müharibədən sonra demək olar ki, dünyadakı bütün ölkələr, hətta böyük dövlətlər belə dronların fəaliyyətini ciddi araşdırdı və orduları üçün yeni istiqamət müəyyənləşdirdi. Rusiya-Ukrayna müharibəsində dronların effektivliyi, kiçik və ucuz başa gələn dronlarla ağır zərərlər verməsi dünyada dron sənayesinin inkişafına gətirib çıxardı. Artıq ölkələr nəinki dronlar istehsal edir, ordularında yeni bölmələr yaradır, bununla paralel olaraq antidron sistemləri üzərində işləyirlər. Artıq ölkələr dronlarla yanaşı antidron sistemlərinə də ciddi vəsait xərcləyirlər. Bu sahədə xüsusilə Hindistan və Rusiya böyük pullar xərcləyir. Rusiya-Ukrayna müharibəsinin gedişi zamanı bir çoxları düşünürdü ki, artıq tankların erası bitdi. Ancaq dövlətlər tankları da təkmilləşdirməyə, dronlardan qorunmaq üçün işlər görməyə başlayıblar. Bütün dünya dronlara fokuslandığı bir zamanda İran İsrail toqquşması baş verdi. İran öncə ucuz dronlar göndərir, ardınca taktiki raketlərlə zərbə endirməyə çalışırdı. Bir neçə gün İsrail hava hücumundan müdafiə sistemlərini tükədəndən sonra ballistik və hipersəs raketlərindən istifadə etməyə başladı. Beləcə bütün dünyaya məlum oldu ki, adlı sanlı hava hücumundan müdafiə sistemləri belə yetərsiz qalır. İsrailin hücumu zamanı məlum oldu ki, İranın hava hücumundan müdafiə sistemləri effektiv deyil, hava məkanı boş qalır. Hava döyüşləri üçün İran dərhal Çindən "J-10" qırıcıları aldı. Dövlətlər özləri belə müharibələrdən dərhal sonra zəif

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"



Zelenski Rusiyaya qarşı yeni əməliyyatlara razılıq verib

Ukrayna Prezidenti Volodimir Zelenski Ukrayna Təhlükəsizlik Xidmətinin Rusiyaya qarşı yeni əməliyyatlarına razılıq verib.

APA xəbər verir ki, Zelenski özünün X hesabında Ukrayna Təhlükəsizlik Xidmətinin rəhbəri Vasili Malyukla görüşü haqqında məlumat verib.

"Mən Təhlükəsizlik Xidmətinin cəngavərlərinə minnətdaram. Biz ictimai olaraq detalları bölüşmürük, amma düşmən bizim hərəkətlərimizin nəticələrini hiss edir. Mən bir neçə əməliyyatın keçirilməsinə də razılıq verdim. İlin ilk yarısında Ukrayna Təhlükəsizlik Xidmətinin Rusiya havadan müdafiə sistemlərini sıradan çıxarmaqda göstərdiyi nəticə xüsusi olaraq diqqətəlayiqdir", - Zelenski qeyd edib.

Nazir müavini: "İran 27,5 trilyon dollar dəyərində yeraltı sərvətlərə malikdir"

İran 27,5 trilyon dollar dəyərində yeraltı sərvətlərə malikdir.

"Report" "Ayooq.ir"a istinadən xəbər verir ki, bunu İranın təbii sərvətlər və mineral ehtiyatlar nazirinin müavini, Geologiya və Faydalı Qazıntıların Kəşfiyyatı Təşkilatının rəhbəri Daryuş İsmaili Təbriz Ticarət Palatasının Mədən və Metal Komissiyasının üzvləri ilə görüşündə bildirib.

Onun sözlərinə görə, İran bu göstərici ilə Rusiya, ABŞ, Səudiyyə Ərəbistanı və Kanadadan sonra dünyada beşinci olub.

Nazir müavini qeyd edib ki, İran bir trilyon 400 milyard dollar dəyərində faydalı qazıntılara malikdir: "Bunun azı beş faizi mineral xammal təşkil edir. 29 milyard dollar dəyərində yataqların kəşfi üçün sertifikatlar verilib. Bu o deməkdir ki, ehtiyatların yalnız iki faizi kəşf edilib".

D.İsmaili vurğulayıb ki, geoloji kəşfiyyat işlərinin aparılması zərurəti heç kimdən gizli deyil: "Mədən və mineral emalı sektorundan 10 trilyon dollar əldə etmək mümkündür".

Dağıstanın keçmiş dövlət katibindən yüz milyardlarla pul müsadirə edilib

Mahaçqala məhkəməsi Dağıstanın keçmiş dövlət katibi Maqomed-Sultan Maqomedovun iki iri neft aktivini dövlətə keçirib. "Yeni Müsavat" xarici mediaya istinadla xəbər verir ki, bunlar Dagnefteprodukt bazası (OOO Kaspetrolservis) və Dagnotech zavodudur. Onların dəyəri 100 milyard rubldan çoxdur.

FTB-nin məlumatına görə, 2000-ci illərin əvvəllərində Maqomedov vəzifəsindən istifadə edərək dövlət müəssisəsinin qeyri-qanuni olaraq respublika mülkiyyətinə verilməsinə, sonra isə onu aşağı qiymətə aidiyyəti şəxslərə satmasına imkan verən qərarlara nail olub.

Daxili İşlər Nazirliyi xüsusilə külli miqdarda dələduzluq və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin yuyulması faktları üzrə cinayət işi açıb. Dağıstan və Moskvada 70-ə yaxın axtarış aparılıb. Sənədlər, nağd pullar, dəbdəbəli əşyalar müsadirə olunub. Dəyəri 3 milyard rubldan çox olan əmlaka həbs qoyulub.

2025-ci il iyunun 25-də Maqomedov saxlanılıb. Ertəsi gün məhkəmə prokurorun iddiasını tam təmin edərək, neft daşıma kompleksinin və digər əmlakın dövlətə verilməsini qanuni hesab edib. Dagnefteprodukt kompleksinə 67 torpaq sahəsi, 360-dan çox daşınmaz əmlak obyekti, boru kəmərləri, yanacaqdoldurma məntəqələri və çənlər daxildir.

Maqomedov iddiaya etiraz etməyib və getməmək barədə yazılı öhdəlik götürüb.

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"

Rusiyadan acı etiraf - "İqtisadiyyatımız çökəcək, əgər..."

Şimal qonşumuzun MDB-dən olan miqrantları Hindistandan gələnlərlə əvəz etməsi ideyası var

"Rusiya miqrantlar olmadan işçi qüvvəsi çatışmazlığı problemini həll edə bilməyəcək".

Bu barədə Rusiya Sənayeçilər və Sahibkarlar İttifaqının rəhbəri Aleksandr Şoxin bildirib.

O əmindir ki, miqrantlar olmasa, Rusiya iqtisadiyyatı çökəcək. Bunun baş verməməsi üçün Şoxin onların ölkəyə gətirilməsinə indidən başlamağı təklif edir. O bu barədə deyib: "İş vaxtı fondunun mümkün genişləndirilməsi də daxil olmaqla, əmək məhsuldarlığını artırmaq və ya digər mənbələrdən istifadə etməklə, çətin ki, 2030-cu ilə qədər bu problemi həll edə bilək".

Şoxin nə dərəcədə haqlıdır? Elədirsə, Rusiya əmək miqrantları ilə bağlı qanunvericiliyini niyə sərtləşdirir?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Yeni Müsavat"a açıqlamasında şimal qonşumuzun miqrantlardan asılı olduğunu qeyd edir və miqrantlar əvəz olunarsa, bunun Rusiya üçün təhlükələrə yol açа biləcəyini vurğulayır: "Rusiyanın rəsmi statistikasına görə, əhalinin 71%-i ruslar, kazaklar, qalan hissəsi isə qeyri-rus millətlərdir. O cümlədən Rusiyada 13 milyondan çox əmək miqrantı yaşayır və bu da ümumi əhalisinin 8%-ni təşkil edir. BMT-nin hesabatına görə, Rusiya əmək miqrantlarının sayına görə dünyada 4-cü yerdədir. Əmək miqrantlarının ÜDM-dəki payı 8%-dən çoxdur. Rəsmi və qeyri-rəsmi əmək miqrantları işləyən əhalinin 10%-ni təşkil edir. Bu, onu deməyə imkan verir ki, Rusiyanın iqtisadiyyatında miqrantlar aparıcı qüvvədir. Rusiya dünyada ən böyük ərazilyə mailk ölkədir. Bu ölkənin ərazisində insan ayağı dəyməmiş torpaqlar çoxdur. Yəni Rusiyanın ərazisində kifayət qədər çox insan yaşamalı və işləməlidir. İşçi qüvvəsinin çoxalması istehsal proseslərin genişlənməsi və Ümumi Daxili Məhsulun artması deməkdir. Rusiyada miqrantlar əsasən ağır əmək tələb edən sahələrdə işləyirlər. Son vaxtlar Rusiyada qanunlar sərtləşdirilir və miqrantlara qarşı sanki bir müharibə elan olunub. Həm də miqrantların bu ölkədən milyardlarla dollar vəsaitin çıxarıldığı deyilir. Amma miqrantlar hesabına Rusiyanın nə qədər pul qazandığı ilə bağlı hər hansı bir statistika açıqlanmır. Çünki miqrantlar ağır sahələrdə çalışdığından bu sahələrdə yaradılan dəyərin məbləği də çoxdur. Amma çox təəssüf ki, Rusiya dövləti son vaxtlar miqrantlara qarşı nifrət hissi yaymağa çalışır. Sanki Rusiyada baş verən bütün cinayətlər miqrantlar tərəfindən törədilir. Rusiyanın bəzi siyasətçiləri tərəfindən MDB ölkələrindən olan miqrantların tez bir zamanda qovulmalı və Hindistandan yeni miqrantlar gətirilərək onların əvəz edilməli olduğu kimi fikirlər yürüdülür. Təbii ki, bu çox səhv siyasətdir. Çünki MDB ölkələrindən olan miqrantlar Rusiyanın təzyiqli siyasətinə adaptasiya olunublar və dil bilgiləri də digərlərinə nisbətən kifayət qədər yaxşıdır. Dil bilgilərinin olması əmək prosesləri üçün çox vacib məsələdir. Əgər deyildiyi kimi, MDB ölkələrinin miqrantları Hindistandan gətirilən miqrantlarla əvəz olunarsa, onların Rusiya mühitinə adaptasiya olunması üçün azı 70 il vaxt lazım olacaq. İkincisi isə onların Rusiya iqtisadiyyatına verə biləcək dəyər də sual altındadır. Bu baxımdan Rusiyada antipatiyanın nə qədər artmasından asılı olmayaraq bu ölkənin iqtisadiyyatının yaşaması üçün miqrantlara ehtiyac həmişə olacaq. Əks halda Rusiyada miqrantlar olmadan bir çox sahələrdə fəaliyyətlər, demək olar ki, dayanacaq. Ona görə də elm adamları siyasətçilərdən fərqli olaraq miqrantları dəyərləndirir və 2030-cu ilə qədər Rusiyaya əlavə miqrantların gətirilməsini vacib hesab edirlər".



İqtisadçı ekspert Günay Hüseynova isə qeyd edir ki, Aleksandr Şoxinin fikri nə qədər təşviş doğurucu olsa da, bir o qədər də reallıqdan uzaqdır: "Rusiya müxtəlif illərdə bir sıra dövlətlərlə istər real müharibə, istərsə də ticari müharibə şəraitində olub. Ümumilikdə ticari müharibənin fəsadları iqtisadi müharibədən həmin ölkə üçün daha ağırdır. Çünki sənaye və istehsalatdakı işçi qüvvəsinin böyük əksəriyyətini miqrantlar təşkil edir. Milli valyutanın xarici valyuta qarşısında dəyər itirməsi, inflyasiyanın sürətinin artması miqrantları öz ölkələrinə və ya digər ölkələrə getməyə məcbur edən səbəblər arasındadır. Hazırda Rusiya iqtisadiyyatı sanksiyalara, müəyyən iqtisadi təzyiqlərə məruz qalır. Bundan əlavə də ticari tərəfdaşlarını itirməsi ixrac potensialında azalmaya səbəb olub. Rusiya iqtisadiyyatının hazırkı vəziyyəti miqrantların ölkələrindəki vəziyyətdən yüksəkdir. Miqrantlarla bağlı qanunun sərtləşdirilməsi paradoks təşkil edir. Əslində məsələnin görünməyən tərəfləri də var. Məlumdur ki, Rusiyada yaşlı nəslin xüsusi çəkisi daha artıqdır. Gənc nəsilə və işçi qüvvəsinə ehtiyac var. Ən ağır və çətin işlərdə miqrantlar işlədilir.

Rusiya iqtisadiyyatında miqrantların sıxışdırılması, sadəcə, yerli vətəndaşların rəğbətini qazanma xarakteri daşıyır. Lakin hökumət də bilir ki, uzun müddət üçün iqtisadiyyatı dirçəltmək miqrantlar olmadan mümkün deyil".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"

Putin türk qızını xilas edə bilmədi - Qaqauziyada partlayış öncəsi vəziyyət

Qaqauziya muxtar bölgəsinin başqanı Yevgeniya Qutsulun həbsi regionda siyasi təlatümə səbəb olub. Məhkəmə 36 yaşlı siyasətçini müxalif "Şor" partiyasının qanunsuz maliyyələşdirilməsində ittiham edərək 7 il müddətinə azadlıqdan məhrum edib. Hökm dərhal icra olunub, Qutsul məhkəmə zalından birbaşa həbsxanaya aparılıb.

Bu qərar sadəcə bir fiqurun həbsi deyil, Moldova-Rusiya qarşıdurmasının kəskinləşməsinin, Qaqauziyada gərginliyin artmasının və böyük güclərin açıq qarşıdurmasının göstəricisidir. Hökm elan edilən gün Kişinyov küçələrində yüzlərlə qaqauz etiraz aksiyası keçirib. Onlar bu qərarı "siyasi sifariş" adlandıraraq hökuməti repressiyalarda ittiham ediblər. Polis isə aksiyanı dağıtmaq üçün güc tətbiq edib.

Qaqauziyada da vəziyyət gərgindir. Sakinlər başqanlarının həbsini "muxtariyyətə təcavüz" kimi görürlər. Əksəriyyətin gözü Kremlin və Ankaranın addımındadır. Rusiya Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov Kişinyovun addımını kəskin pisləyib: "Bu, siyasi motivli qərardır. Seçki kampaniyası zamanı siyasi opponentlərə açıq və faktiki olaraq qeyri-qanuni təzyiq göstərmək cəhdidir. Moldovada müxalifət sıxışdırılır, insanlar istədiklərinə səs verməkimkanından məhrum edilirlər. Demokratiya normaları tapdalanır".

Amma Peskovun sərt bəyanatı kifayət deyil. Moldova rəhbərliyi öz mövqeyində qətidir.

Bəs Moskva neçə aydan bəri istintaq altında olan Qutsulu niyə xilas edə bilmədi? Eyni sual Ankaraya da yönəlib. Qutsul yalnız Putinə yox, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana da müraciət etmişdi.

Moldova türkləri olan xristian qaqauzlar Ankaradan ənənəvi himayə gözləyirlər. Lakin Türkiyə də hələ ki səssizdir.

Məsələ ilə bağlı politoloq Qabil Hüseynli Musavat.com-a bildirib ki, Qutsulun həbsi sırf cinayət işi yox, Moldova ilə Rusiya arasında açıq siyasi qarşıdurmanın nəticəsidir: "Yevgeniya Qutsulun həbsi Kremlin nüfuzuna vurulan ağır zərbədir. O, sadəcə Qaqauziya başqanı deyil, həm də Rusiyanın Moldovadakı dayaqlarından biri idi. Onun bu qədər asanlıqla həbs olunması göstərir ki, Qərb dəstəkli Maya Sandu hökuməti artıq Kremldən çəkinmir".

Politoloqun sözlərinə görə, bu həbslə Qaqauziya yeni qaynar nöqtəyə çevrilə bilər.

Qabil Hüseynli Qaqauziyada hadisələrin inkişaf ssenariləri haqda da fikirlərini bölüşərək deyib ki, gərginlik dərinləşə, Qaqauziya alovlana bilər: "Qaqauziya cəmiyyətində narazılıq yüksəkdir. Onlar muxtariyyətin başçısının həbsini muxtariyyətə təcavüz kimi görürlər. Bölgədə etirazlar daha da artacaq. Moskva bu aksiyaları dəstəkləyərək Qaqauziyada separatizmi qızışdıra bilər. Bu isə Moldovanın daxili sabitliyinə ciddi zərbədir".



Politoloq hesab edir ki, Rusiya açıq hərbi addım atmasa da, Moldovaya qarşı təzyiqlərini gücləndirəcək: "Enerji və iqtisadi rıçaqlar işə salına bilər. Bundan başqa, Moskva Qaqauziya kartını Moldovanın Ukraynaya yaxınlaşmasına qarşı "əks çəkic" kimi istifadə edəcək. Dnestryanı bölgə məsələsini də yenidən gündəmə gətirmək ehtimalı var".

Qabil Hüseynli hesab edir ki, Ankara da vəziyyətə qarışa bilər: "Ərdoğan hazırda gözləmə mövqeyindədir. Amma o, qaqauz türklərinin taleyinə biganə qalmayacaq. Türkiyə Moldovaya qarşı açıq mövqe sərgiləməsə də, diplomatik kanallarla qaqauz icmasına dəstəyini artıracaq. Bu, həm də Rusiyaya və Qərbə mesaj olacaq".

Politoloqa görə, Qərb də bu böhrandan istifadə edəcək: "Maya Sandu hökuməti Avropa İttifaqına inteqrasiya kursunu davam etdirəcək. ABŞ və Aİ Moldovanın təhlükəsizlik strukturlarına daha çox dəstək verəcək və Kişinyovu Rusiya təzyiqinə qarşı qoruyacaq. Bu, Qaqauziya böhranını beynəlxalq qarşıdurmaya çevirə bilər".

Qabil Hüseynlinin qənaətinə görə, Qaqauziya artıq sadəcə Moldovanın daxili problemi deyil, Moskva, Ankara və Brüssel üçbucağında oynanan böyük geosiyasi oyundur: "Moskva Qaqauziyanı Moldovanı və Qərbi təzyiq altında saxlamaq üçün rıçaq kimi görür. Qərb isə Sandu hökumətinə tam dəstək verərək Rusiyanın bölgədəki təsirini minimuma endirmək istəyir. Yevgeniya Qutsulun həbsi bu qarşıdurmanın qığılcımıdır. Qarşıda isə çox gərgin günlər olacaq".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
Musavat.com

Yaradıcı ziyalılardan dissidentlik ummaq adəti - amma çoxluq zor qarşısında susur, başlarını qoruyurlar

Yeniyetmə vaxtı Azərbaycan yazıçılarının əsərlərini oxuyanda düşünürdüm ki, bu əsərlərin müəlliflərinin özləri çox ideal, dürüst, vicdanlı, xeyirxah, mərhəmətli, kristal adamlardır. Bir halda ki, onlar həmişə mənəvi paklıqdan, ülviyyətdən, saflıqdan yazırlar, deməli, özləri də başqa cür ola bilməzlər.

Xalid KAZIMLI



Sonradan bu fikirdə müəyyən korrektələr oldu. Zaman gəldi, bu camiəyə daxil olan insanlarla tanışlıq, ünsiyyət belə bir qənaəti möhkəmləndirdi ki, cəmiyyətin fərdləri necədirsə, yazıçı və şairlərimiz də elədir. Onlar da çörək yeyirlər; yaşayış uğrunda mübarizə aparırlar; ailə-uşaqları, məişət qayğıları var; şöhrət və pul qazanmaq istəyirlər, bir-biri ilə intriqa aparırlar və s.

Başqa sözlə, cəmiyyətin bu peşə adamlarını dürüstlük, fədakarlıq, halallıq mücəssəməsi obrazında görmək arzusunun puçluğu ortaya çıxdı. Ayrı-ayrı dəyərli, saf, insaniyyatı uca, gözü-könlü tox şair-yazıçılarımız, əlbəttə ki, var.

Ancaq biz hələ də şair-yazıçılardan (eləcə də jurnalistlərdən) "el üçün ağlayan göz" istəyirik, onlardan "qələmini süngüyə çevirən ziyalı" olmalarını tələb edirik. Ölkənin problemlərini həll etməli olan nazirlər, komitə sədrləri, agentlik, konsern, xidmət rəhbərlərini kənarda qoyur, "yaradıcı ziyalılar"ı hər işə görə məsul tuturuq. Trafaret ifadə də var: "Onlar xalqın dərdlərini dilə gətirməlidir".

Sanki bir yazıçı, şair oturub-durub xalqın sosial problemlərindən danışsa, yazsa, o problemlər avtomatik həll olacaq.

Xüsusilə tanınmış, şöhrətli yazıçı-şairlərə münasibətdə bu demaqoji uzun illərdir davam edir və sona çatana oxşamır.

Bir neçə gün öncə vəfat edən xalq yazıçısı Elçinə münasibətdə də sosial şəbəkələrdə belə paylaşımlar göründü. Yazıçının vaxtilə baş nazirin müavini olması, siyasi hakimiyyətdə təmsil olunması onun xalqdan ayrı düşməsi, "elitadan olması", "xalqın problemlərinə biganə qalması" kimi təqdim edilirdi.

Özünün ədəbi şöhrət və uğur qazana bilməməsinin səbəbini Elçində və onun kimi üzdə olan başqa yazıçı-şairlərdə görənlərin müvafiq paylaşımlarından qəribə bir sinfi nifrət yağırdı. Yeniyetmə vaxtı "ən dürüst, ən vicdanlı insanlar" saydığımız yazı-pozu adamlarının əslində bu qədər xıltlı, paxıl, intriqan olmasını müşahidə etmək dözülməzdir.

Elçin yaxşı yazıçı olub, parlaq povestləri, sanballı romanları, maraqlı pyesləri və yaxşı film ssenariləri var. Ondan qalan izlər bunlardır. Bu yazıçının məmurluğunun tarixdə izi qalmayacaq. Bəlkə yaxşılıq (ya da pislik) etdiyi, yaxşı (ya da pis) münasibətlərdə olduğu adamlar yeri gələndə bunu dilə gətirələr, ya gətirməyələr.



Bir ədibə onun əsərlərinə görə qiymət verilməlidir. Son illərdə Molla Pənah Vaqifin vəzirliyi və şəxsi həyatı haqqında da bir çox incə məqamlar açıqlanıb, amma bu, onun qoşmalarının bədii dəyərini, estetik gözəlliyini azaltmır.

Hökmdarlardan ənam almağa gəlincə, böyük Nizami kənd və kəniz alıb, amma öz böyüklüyündə qalır. Füzuli ömrünün son illərini Sultan Süleymanın kəsdiyi təqaüdlə yaşayıb. Qasım bəy Zakir özü mülkədar olub. Mirzə Fətəli çar qulluğunda rütbə daşıyıb. Bu gün biz onların vaxtilə öz güzəranlarını necə keçindirdiklərinə uzağı bir cümlə yer verib, yazdıqları əsərlərə baxırıq. Gələcəkdə də elə olacaq. Elçinin, Anarın, Ramiz Rövşənin haradan maaş, təqaüd almaları ədəbiyyatda bir sətirlə də qalmayacaq. Qalan onların əsərləri olacaq.

Yazıçı, şairlərə bu sayaq "döyüşkən təbliğatçı" və "xalqın dərdlərinin tərcümanı" obrazında yanaşmaq vərdişi sovet dönəmindən qalıb. O zamanlar kommunist ideologiyası öz platformasında duran yaradıcı ziyalıları, necə lazımdır, təmin edirdi: əsərlərinə yüksək məbləğli qonorarlar verirdi, yaradıcılıq ezamiyyətlərinə, kurortlara, sanatoriyalara göndərirdi, mənzil, növbədənkənar avtomobil verirdi və s.

Ancaq sovet dövlətinin rəsmi kursu xaricdə yaşayan ədiblərə münasibətdə fərqliydi. O ədiblər öz ölkələrinin siyasəti ilə razı deyildilərsə, sol ideyalara meylli idilərsə, SSRİ-də öyülürdülər, kitabları tərcümə və çap edilirdi, qonaq çağırılırdılar və s. Onlardan sosializm quruculuğunu vəsft etmək umulmurdu, öz ölkələrinin, quruluşlarının eybəcərliklərini yazmaları kifayət idi.

Məsələn, sovet dövründə Türkiyənin şöhrətli satirik yazıçısı Əziz Nesin bütün SSRİ-də çox sevilirdi. O, öz xalqının "dərdlərinin tərcümanı"ydı, kapitalist dünyasını qamçılayan əsərlər yazırdı. Ə.Nesin ölkəsində ağır vəziyyətdə yaşayırdı, dolanışıq üçün hər cür qara işlərə baş vururdu, sovet dövləti bu faktı Türkiyəni "vurmaq" üçün istifadə edirdi. Nazim Hikmət və Səbahəddin Əlini sovet dövləti üçün sevimli edən təkcə fenomenal istedadları deyildi, əsasən siyasi mövqeləri, solçu baxışları idi. İstedada qalsa, Cəmal Sürəyya, Özdəmir Asaf, Mehmet Akif hamıdan istedadlı şair olublar, amma SSRİ-yə sərf edən platformada olmayıblar.

Ernest Heminqueyi, Jan Pol Sartrı, Pablo Nerudanı sovet ölkəsində məşhur edən də məhz siyasi baxışları idi. Onlardan daha istedadlı və şöhrətli olanlar isə sovet təbliğatçıları üçün "xırda burjua yazıçıları"ydı. Sovet dövlətində "düzü düz, əyrini əyri", əsl həqiqəti yazanlar (Soljenitsın, Voynoviç, Gülhüseyn Hüseynoğlu, Dövlətov, Brodski, Amalrik və b.) isə təqib, həbs, sürgün olunurdular.

Bu şablon hələ də qalır və bizə də sirayət edib. Biz yazıçı şairlərimizdən həm vətənpərvərlik, həm də dissidentlik umuruq. Vətənpərvərlik edənləri dərhal qaralayır, hökumətə işləməkdə qınayırıq. Dissidentlik edənləri isə "hər şeyi qara görmək"də suçlayırıq. Bunun ikisini eyni vaxtda etmək isə riyakarlıq adlandırılır.


Söz yox, yazıçının vətəndaş mövqeyi olmalıdır, haqsızlığa susmamalıdır, ədalətsizlikdən yana olmamalıdır, dürüst, vicdanlı sözlər söyləməlidir, yalan danışmamalıdır və s. Amma bunu təkcə yazıçılar yox, hər kəs, bütün peşə sahibləri etməlidir. Yoxsa mən qəssabam, satıcıyam, santexnikəm, taksi sürücüsüyəm, məmuram, mənə yalan danışmaq, başqalarına kələk gəlmək, can və iş qorxusuyla zor qarşısında susmaq olar, amma sən yazıçısan, jurnalistsən, sənin buna haqqın yoxdur. Belə standart ola bilməz.

Ancaq durum təxminən belədir. Sanki yaradıcı ziyalılar hamının əvəzindən mübarizə aparmalıdırlar, özlərini fəda etməlidirlər, hər möhnətə, məhrumiyyətə qatlaşmalıdırlar, başqaları isə kənarda dayanıb deməlidirlər: "Əhsən, kişi xalqın yolunda can qoyur".

Bu cür xalq yolunda təkəm-seyrək şəkildə can qoymalarla bütöv bir ölkədə haqq-ədalət bərqərar oluna, güllük-gülüstanlıq bilməz. Olsa-olsa, özünə, ailəsinə problem yaradanların sayı 3-5 nəfər artıq olar.

Yaradıcı ziyalılara, xüsusilə də yazıçı və şairlərə sinfi, zümrəvi prizmadan yanaşmaq, onları hansısa siyasi platformada durmağa, siyasi bəyanatlar verməyə sövq etmək olmaz. Onları azad buraxmaq lazımdır. Azad sənətkarlar mütləq "düzü düz, əyrini əyri" yazacaq, deyəcəklər.

Rusiyada təqib olunan yazıçılar - təqsirləri işğalçı müharibəyə qarşı çıxmaqdır



Rusiya tarixində yazıçıların təqib olunması, xor görülməsi, cəzalandırılması halları çar dövründə də olub, sovet dönəmində də. Bu sırada Lermontov, Radişev, Soljenitsın və başqa parlaq imzalar var.

Hazırda da Rusiyada bir sıra məşhur yazıçılar təqibə məruz qalır. Onlara qarşı cinayət işləri açılır, kitabları satışdan çıxarılır, barələrində mediada qara piar kampaniyası aparılır və s. Bu müəlliflərin arasında ən məşhurları Boris Akunin, Vladimir Sorokin, Dmitri Bıkov, Lyudmila Ulitskayadır.

Rusiya kitab mağazaları və kitabxanaları Boris Akuninin (Qriqori Çxartişvili) kitablarını hələ 2022-ci ildə satışdan yığışdırmaya başlayıb. Buna səbəb yazıçının Rusiyanın Ukrayna üzərinə başlatdığı genişmiqyaslı "xüsusi əməliyyat" olub.

Yeni təqib dalğası 2023-cü ilin sonunda yazıçıya Aleksandr Tkaçenkonun (2023-cü ilin iyul ayına qədər Ukraynanın mədəniyyət naziri postunu tutub) adından zəng edən Vovan və Leksusun (Vladimir Kuznetsov və Aleksey Stolyarov) "zarafat"ından sonra başlanıb. Akunin onlarla söhbətində Ukraynaya kömək etmək üçün pul topladığını söyləyib.

Hazırda yazıçı Rusiya Federasiyası CM-in terrorçuluğa ictimai bəraət qazandırmaq maddəsi ilə təqib olunur. O, 2014-cü ildən Rusiyada yaşamır və ölkəsində "düşmən" adlandırılır.

Yazıçı Lyudmila Ulitskaya da Ukrayna ilə müharibəni pislədiyi üçün təqibə məruz qalıb və ölkəni tərk etməli olub. 2022-ci ilin payızından onun kitabları mağazalardan yığışdırılıb.

2023-cü ilin yanvarında Vovan və Lexus Ulitskayanı da təxribata çəkiblər. Onlar ona Ukrayna prezidenti aparatının rəhbəri Andrey Yermakın adından zəng ediblər və yazıçı kitablarının satışından gələn qonorarın "Ukraynaya getdiyini" deyib.

Rusiyanın məxfi xidmətlərinə işləmələri şübhə doğurmayan Vovan və Leksusun təxribatından əziyyət çəkən digər yazıçı Dmitri Bıkov olub. "Yermak"la söhbətində yazıçı Ukraynaya gəlməkdən, yerli universitetlərdə dərs deməkdən və ya başqa işlərlə məşğul olmaqdan imtina etməyəcəyini, Ukrayna ordusunun Mariupolu rus işğalçılardan azad etməsini gözlədiyini bildirib.

2023-cü ilin yanvar ayında Bıkov barəsində "arzuolunmaz" təşkilatın fəaliyyətində iştiraka görə inzibati maddə ilə protokol tərtib edilib.

2024-cü il yanvarın əvvəlində ictimai təşkilatlar Daxili İşlər Nazirliyindən Vladimir Sorokinin "İrs" romanında "pedofiliyanın təbliğatı"na görə təftiş aparılmasını xahiş ediblər. Müraciəti 1500 nəfər imzalayıb. Romanı nəşr edən AST nəşriyyatı onu ekspertizaya göndərib. Sorokin ittihamları rədd edib. O, donos ətrafında yaranan rezonansı "bir qrup xəbərçi tərəfindən qaldırılan ajiotaj" adlandırıb.

Ümumiyyətlə, bu gün Rusiyada hansı yaradıcı ziyalı sülh çağırışı edirsə, dərhal "xarici agent" elan edilir.

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"



Musiqili xidmət

Zamin HACI
zaminhaci@gmail.com

Xalq bəzən dövlət idarələrinin müştəri xidmətlərindən narazılıq edir. Hətta bu günlərdə telekanallarımızın müdiri AzTV müəllimin efirində bu haqda süjet verilmişdir. Müxbir su, elektrik, qaz və sairə idarələrə zəng vurur, o başdan deyirlər ki, Azərbaycan dili üçün 1 düyməsinə basın, sizin sırada növbəniz 19-cudur, abonent əhatə dairəsi xaricindədir və sairə.

Həqiqətən, adı "qaynar" olan bu xidmətlərin bəzisinin donu yayın 45 dərəcə istisində də açılmır. Məsələn, mən özüm keçən il sentyabrda bir müştəri xidmətinə zəng eləmişdim, indiyəcən növbədəyəm, bu müddətdə Karl Orfun "Karmina Burana" kantatasından başlayaraq Qara Qarayevin "İldırımlı yollarla" baletindən gitaralı qızların rəqsinə, Məmmədbağır Bağırzadənin ifasında "Dinə bilmədim" nəğməsindən Mətanət İsgəndərlinin "Taleyim mənim" mahnısına qədər saysız miqdarda gözəl musiqilər dinləmişəm.

Təbii ki, müştəri xidmətindən cavab gözləyərkən şəxsi işlərimlə də asudə məşğul ola bilirəm, hamamda çimir, köşə yazır, dənizə gedir, qarğıdalı və qarpızla pendir-çörək yeyirəm. Bəzi müştərilər telefonda gözləyərkən "Üç inək" pendirinə üstünlük verir, lakin mən özüm əsasən "Öküz ürəyi" pendirini bəyənirəm.

Bunun özü müştəri xidmətlərinə, qaynar cavab xətlərinə minnətdarlıq etməyimizə şərait yaradır, çünki oralarda zəngin repertuar seçirlər. Ancaq təəssüf ki, həmişə belə olmur. Bəzi idarələrdə musiqi yeknəsəqdir. Sanki patefonu, diski, maqnitofon kasetini, p3-pleyeri, uzun sözün qısası, idarədə xalqın dinlə - məsi üçün qoyulan qurğu nədən ibarətdirsə, onu dəyişdirmək üçün əlavə işçi ştatı saxlamaq çətin imiş. Xahiş edirik, Nazirlər Kabineti yaxın 3 ay ərzində bu məqsədlə tədbirlər görsün.

Hətta yaxşı olar, hələ o biri dünya ilə əlaqə yaratmamış çoxlu xalq, əməkdar artistlərimizə müraciət edilsin, onlar canlı ifa üçün müştəri xidmətlərinin koll-sentrinə (ingiliscə də bilirəm, görürsünüz) çağırılsın. Biz də şikayətə cavab gözləyərkən "Bayatı-Kürd", "Şahnaz", "Segah" muğamlarımızı dinləyək, zövq alaq, xalq sənətini yaşadaq. Fonoqramdan bu yaxşı deyilmi?

Məsələn, bu yaxında rabitə ilə bağlı şikayətim var idi, o zaman mən hansısa avanqard musiqini dinləməli oldum. Halbuki dəstəkdən "Ey dad, ey dad, aman, aman, əman, yar, yar, yar, uy, uy, uy, uy, ölürəm, ölürəm, ölürəm, a dərdin alım" söhbəti gəlsəydi, nə xoş olardı!

Yaxud təsəvvür elə, avtobusu gözləyirsən, gəlib çıxmır, qaynar xəttə zəng vurursan, ordan bu musiqinin şaqraq təranələri eşidilir: "Yel əsər, dağıdar dağda dumanı. Anamın gözləri yoldadır, bircə mənə qalmış gümanı, Gedim görüm əziz anamı, A köhlən atım... Bulud, kəs aranı, Qoy arabanı kəndə çatsın. Aaa... dağda yelə dönək Düzdə selə dönək, a köhlən atım, A qarlı dağlar..."

O cümlədən "Bir azca da döz", "Bəlkə dost qalaq", "Verdim getdi", "Gizli nömrə", "Yox xəbərin", "Yalvarımmı", "Şərəfsiz", "Bir qulaq as sözlərimə", "SOS" kimi trend mahnıları da müştəri xidmətlərinin avtomat cavabvericilərində istifadə etməliyik. Yazarkən ağlıma gəldi, "Qaya" qrupunun sanki elə bu məqsədlə yaradılmış "Telefon avtomatları" mahnısı da lap yerinə düşərdi.

Biz sənətə, musiqiyə böyük əhəmiyyət verən millətik. Bizi susuz, işıqsız, qazsız, rabitəsiz, yolsuz, lap elə ac qoy (şərti olaraq, əlbəttə, hər şeyimiz var), amma musiqisiz qoyma. Elementar bir sual üzərində sizi düşünməyə çağırıram: bizdə musiqi üzrə xalq artistləri vardır, ancaq heç xalq elektriki, xalq suçusu, xalq qazvuranı, nə bilim, əməkdar avtobus sürən kimi titullar görmüsünüzmü? Bəs onda şikayətiniz nədir? Musiqimizi verirlər, Allaha min şükür. Ən pisi musiqinin kəsilməsi olardı.

Onda hara zəng edərik?



Kremlin Qarabağdakı "desantı"nın alacağı cəza

Ruben Vardanyanın 6 aydır susması məhkəmənin qərarına necə təsir edəcək? - hüquqşünas açıqladı

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) Ermənistan vətəndaşı Ruben Vardanyanın çoxcildli cinayət işi üzrə məhkəmə araşdırmaları davam edir.

Ruben Vardanyan bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub. O, Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə ittiham olunur. Hazırda məhkəmədə zərərçəkənlərin dinlənilməsi mərhələsidir. 6 aydır davam edən məhkəmə prosesində müttəhim Ruben Vardanyan susmaq hüququndan istifadə edir.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

Vardanyana nə zaman hökm oxunacaq? O biri müttəhimlərdən gec və ya tez ola bilərmi? Onun susması məhkəmənin qərarına necə təsir edəcək?

Hüquqi və Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Bəşirov "Yeni Müsavat"a açıqlamasında izah edib ki, əvvəla Vardanyanın işinin keçmiş qondarma rejimin rəhbərliyində olmuş digər şəxslərdən ayrıca aparılmasının səbəbləri haqda mətbuatda çox yazılıb: "Vardanyan elə dövrdə Qarabağa gəlmişdi ki, onun bütün fəaliyyəti videolentə alınıb, hər şey sübutlarla var. Əlbəttə, ibtidai istintaq və məhkəmə dövründə susmaq qanunidir, onu kimsə məcbur edə bilməz. Amma susması onu məsuliyyətdən azad etmir, yaxud cinayətini sübut etməkdə çətinlik yaratmır. Əgər susmasaydı, əməkdaşlıq etsəydi, məhkəmə istintaqının uzanmaması üçün məlumatlar versəydi, onun üçün cəzanın təyin edilməsində yüngülləşdirici hal kimi nəzərdə tutula bilərdi. Susmaq ağırlaşdırıcı hal olmasa da, əməkdaşlıq etmək istəməməsindən irəli gəlir. O, hələ də özünü haqlı olduğunu göstərməyə çalışır".

Hüquqşünas qeyd edib ki, Vardanyan Azərbaycan sərhədini qanunsuz keçib və silahlı qrupların maliyyələşməsində iştirak edib, ərazilərimizdə oyuncaq "dövlət naziri" postu tutub: "Onun bütün addımları, çıxışları mediada var və susması heç nəyi dəyişmir. Yəni ifadə vermirsə, yekunda yüngülləşdirici hal kimi nəzərə alınmayacaq. Bu 6 ay ərzində zərərçəkənlər dinlənilib, sübutlar ortaya qoyulub. İnanıram ki, ibtidai istintaqda olan sübutlar məhkəmə hökmündə öz əksini tapacaq və layiqli cəzasını alacaq. Çünki bu şəxslər bizim ərazilərimizdə Azərbaycan dövlətinə qarşı olduqlarını, cinayətkar fəaliyyətlərini açıq şəkildə nümayiş etdiriblər. Ona görə də dövlətimiz və xalqımız qarşısında layiqli cəza alacaqlar".

Yada salaq ki, bəzi Qərb nəşrlərində, ermənipərəst kluarlarda, ABŞ, Fransa, Avropa Parlamentində Vardanyanla bağlı kampaniya aparanlar var. Onlar milyarder cinayətkarı siyasi məhbus kimi qələmə verməyə çalışırlar. Yeri gəlmişkən, Ermənistanın Baş naziri Nikol Paşinyan Ruben Vardanyanla bağlı məktubun ABŞ Prezidenti Donald Trampa göndərilməsini rədd etməsinə dair mətbuatda yayılan məlumatlara münasibət bildirməmişdi. "Hraparak" nəşri yazmışdı ki, Nikol Paşinyan Ruben Vardanyanın ailəsinin onun azadlığa buraxılmasına dəstək göstərilməsi üçün ABŞ Prezidenti Donald Trampa müraciət etməklə bağlı xahişini rədd edib.

Nəşrin xəbərinə görə, ABŞ-da yaşayan erməni diasporunun bəzi nümayəndələri Trampın qızının həyat yoldaşına müraciət edərək, ondan Ağ Ev rəhbərinin bu məsələyə qarışmasına dəstək göstərməyi istəyib. Məlumata görə, Tramp yalnız rəsmi İrəvanın müraciəti əsasında bu addımı atacağını söyləyib. Ermənistanın ABŞ-dakı səfiri Lilit Manukyants müraciəti Nikol Paşinyana çatdırsa da, rədd cavabı alıb. Bu mövqe belə bir müraciətin Azərbaycanla sülh müqaviləsinin imzalanmasına xələl gətirə biləcəyi ilə əsaslandırılıb.

Vardanyan Rusiya maliyyə sənayesinin ən məşhur adamlarından biridir. O, Rusiyada ilk investisiya bankı olan "Troyka Dialoq"u qurub, yüksək etik standartlara uyğun iş apardığı üçün bir çox mükafatlar alıb. Bununla belə, "Troyka" əsas bizneslə yanaşı, bütöv bir ofşor şirkətlər sistemi yaradıb ki, onun vasitəsilə pul gizli şəkildə Rusiyanın ən güclü adamlarına, məsələn, Vladimir Putinin dostu Sergey Rolduqinə ötürülüb.

Bu şirkətlərin hesablarından 4,5 milyard dollardan çox vəsait keçib. Pullar, xüsusən, Rusiyadan milyardlarla çirkli pulun yuyulması, nağdlaşdırılması və ya qeyri-qanuni çıxarılması ilə bağlı cinayət işlərində iştirak edən şirkətlərdən daxil olub.

2012-ci ildə "Troyka" "Sberbank"a satılıb. Onun yaratdığı ofşor şirkətlərin hesabları üzrə hərəkətlər 2013-cü ilə qədər davam edib. Vardanyan 1992-ci ildə universiteti yeni bitirərək "Troyka"ya rəhbərlik edib.

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"



Ukrayna üçün Qarabağ ssenarisi - İlham Əliyevin tarixi çağırışı

Azərbaycan Prezidenti işğalla barışmamağı tövsiyə edir, çex həmkarı isə..; **ekspert:** "Qərbin strateji hədəfi odur ki, nə Rusiya qalib gəlsin, nə Ukrayna məğlub olsun"

"Suverenlik naminə Ukrayna müvəqqəti işğalı qəbul edə bilər". Bunu BBC-yə müsahibəsində Çexiya Prezidenti Petr Pavel deyib. Dövlət başçısı qeyd edib ki, işğal olunmuş ərazilər heç vaxt Rusiya kimi tanınmayacaq. "İndi Ukrayna Qərbin bütün dəstəyi ilə işğal etdiyi əraziləri qısa müddət ərzində böyük insan itkiləri olmadan azad edə bilmir. Biz onun müstəqil suveren ölkə kimi yaşamasını istəyirik. Əgər onun yaşamasının əvəzi ərazisinin bir hissəsinin müvəqqəti olaraq işğal altında qalmasıdırsa, deməli, belə olacaq. Biz bunları heç vaxt qanuni olaraq tanımayacağıq", - prezident əlavə edib.

Yada salaq ki, Xankəndidəki media forumda çıxışı zamanı Azərbaycan lideri İlham Əliyev Ukrayna xalqını bir daha işğalla barışmamağa çağırıb.

Bəs Ukrayna üçün Qarabağ ssenarisi mümkündürmü?

Siyasi ekspert Ramiyə Məmmədova Ukrayna böhranının uzanacağını proqnozlaşdırır. Onun sözlərinə görə, keçmiş Qarabağ münaqişəsindən fərqli olaraq, bu müharibə qlobal mahiyyət daşıyır: "Təbii ki, Ukrayna hələlik ərazilərini geri almaq gücündə görünmür. Kollektiv Qərbin verdiyi dəstəyə baxmayaraq, Ukrayna müdafiə olunur. Doğrudur, Rusiya ərazilərinə dron zərbələri endirir, amma işğal edilmiş əraziləri azad etmək bu gün mümkün deyil. Çünki ABŞ və koalisiya müdafiə silahları verir. Bu da əks-hücum üçün yetərli deyil. O nöqteyi-nəzərdən təxmin etmək olar ki, Ukrayna üçün Qarabağ presedenti istisna deyil. Yəni yaxın illərdə torpaqlar işğal altında qalacaq. Əgər ABŞ işğalçı qüvvələri bombardman etməyə köməklik göstərsə, tezliklə Ukrayna ərazi bütövlüyünü bərpa edə bilər. Lakin bu savaşda Qərbin strateji hədəfi odur ki, nə Rusiya qalib gəlsin, nə Ukrayna məğlub olsun".

Analitikin fikrincə, Ukrayna üçün Gürcüstan variantı da var: "Söhbət Avropaya inteqrasiyadan gedir. Gürcüstan Rusiyanın himayə etdiyi Abxaziya və Cənubi Osetiya problemini gündəlikdə saxlamır, əvəzində mövcud əraziləri ilə Avropa Birliyinə üzvlüyü hədəfləyib. Ukrayna da şərq və cənub ərazilərini, yəni 20 faiz torpağını itirsə də, avrointeqrasiyanı sürətləndirə, inkişaf yolunu tuta bilər. Sadəcə, atəşkəs üçün ləyaqətli şərtlər olmalıdır ki, Ukrayna razılaşsın. Bu da olmadıqca hərbi əməliyyatlar davam edəcək. Şübhəsiz ki, 4 ildir döyüşən, təslim olmayan Ukrayna işğalla barışmadığını sübut edir. Azərbaycan da işğalla barışmadı və nəticə qazandı. Ukraynanın isə qarşısında birbaşa Rusiyadır və bu, vəziyyəti daha da ağırlaşdırır. Hər halda, indiki reallıqlar atəşkəsi şərtləndirir, döyüşə davam heç bir tərəfə qazandırmır".

Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədlinin sözlərinə görə, Rusiyanın müttəfiqləri də işğal olunan əraziləri "Yeni Rusiya" kimi tanımır: "Dünya bu işğalla barışmır, eləcə də Ukrayna. Ukrayna ərazi bütövlüyünü bərpa etməli və Rusiya ordusu 1991-ci ilin sərhədlərinə qayıtmalıdır. Bu olmadıqca, müharibə davam edəcək, atəşkəs pozulacaq, işğal edilən ərazilərdə sabitlik bərqərar olmayacaq, Putin o regionlara əhali köçürə bilməyəcək. Azərbaycan Prezidentinin tövsiyəsi də təcrübədən irəli gələn bəyanat idi. Biz xalq olaraq işğala boyun əymədik və gücləndik, ən əlverişli şəraitdə torpaqların azad olunması əməliyyatlarına başladıq. Mənçə, Ukrayna da torpaqlarını azad edəcək. Sadəcə, bu gün olmaya bilər".

S.Əsədli hazırda silahların susmasını vacib sayır, onun fikrincə, tökülən qanlar artıq dayandırılmalıdır: "Hər gün dinc insanlar qətlə yetirilir. Rusiya isə 4-cü ildir ki, davam edən savaşda itirdiklərinə baxsa, qazandıqlarına dəyməz".

Qeyd edək ki, ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoff Moskvaya gedib. TASS mənbələrə istinadən məlumat yayıb. Uitkoffu Vnukovo hava limanında Rusiyanın Birbaşa İnvestisiya Fondunun rəhbəri Kirill Dmitriyev qarşılayıb.

Məlumata görə, bu gün, ABŞ prezidentinin ultimatumunun bitməsinə iki gün qalmış Uitkoff ilə Rusiya nümayəndələri arasında danışıqlar aparılmalıdır.

Yeri gəlmişkən, Ukrayna Prezidenti Volodimir Zelenski ilə ABŞ lideri Donald Tramp arasında telefon danışığı olub. Ukraynanın dövlət başçısı Telegram hesabında yazıb. O, söhbət zamanı Ağ Ev rəhbərinə sülh istiqamətində göstərdiyi səylərə görə təşəkkür edib. Zelenski insan ölümlərinin mümkün qədər tez dayandırılmalı olduğunu açıqlayıb: "Həqiqətən də qətllərin qarşısını tez bir zamanda almaq lazımdır. Biz bunu dəstəkləyirik. Müharibə aylardır davam edir. Bu müddət savaş olmadan da keçə bilərdi".

Ukrayna Prezidenti amerikalı həmkarı ilə ölkələr arasındakı mövqelərin koordinasiyasını həyata keçirdiyini, eləcə də Rusiyaya qarşı sanksiyaların tətbiqi məsələsini müzakirə etdiyini açıqlayıb. Tramp Rusiyanın Kiyevə zərbələri barədə də məlumatlandırılıb. Gündəmdə Niderland, İsveç, Norveç və Danimarkanın Ukraynaya silah yardımı üzrə qərarı, habelə ABŞ ilə müdafiə sahəsində əməkdaşlıq kimi məsələlər də olub. Zelenski rəsmi Vaşinqtonla müdafiə sektorunda tərəfdaşlığa dair sazişin mətninin hazır olduğunu da bildirib.

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"

Rusiyadakı bir sorğunun ilginc nəticəsi - Azərbaycanla düşmənçiliyə davam?

Üzeyir Şəfiyev: "Putin "Avropanın xəstə adamıdır" və Rusiyanı faşizm bataqlığına sürükləyir"

Bu ayın əvvəlində Ümumrusiya İctimai Rəyin Öyrənilməsi Mərkəzinin keçirdiyi sorğuya əsasən, ölkə prezidenti Vladimir Putinə sakinlərin 78,4%-i etimad göstərir. Onun fəaliyyəti respondentlərin 74,7%-i tərəfindən bəyənilib ki, bu da əvvəlki həftənin göstəriciləri ilə müqayisədə 0,3% artım deməkdir. Keçən ay isə Rusiya liderinə etimad səviyyəsi 77,6% olmuşdu. Yəni yalnız artım müşahidə olunur.

Putinə 78%-lik rəğbəti, yaxud heyranlığı necə qiymətləndirək? Rus xalqı Ukraynaya qarşı təcavüzkar müharibənin davamını istəyirmi? Qonşu suveren ölkələrə qarşı Kremlin şantaj və hədə siyasətinin bitməməsini arzu edirmi? "SSRİ-2" planını gizlətməyən, "Harada rus var, Rusiyanın sərhədi oradan keçir", "Bizim bir müttəfiqimiz var, o da ordumuzdur" söyləyən bir şəxsə yüksək ictimai dəstəyin hədəfi nədir?

Bu, əslində həm də Azərbaycanla düşmənçiliyə davam deməkdir? Bəs avtoritar ölkədə belə sorğular nə dərəcədə səhih sayıla bilər?

Sosioloq Üzeyir Şəfiyev mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Sosioloq qeyd edib ki, hər şeydən əvvəl sorğunu keçirən təşkilatın kimə məxsus olması mühüm əhəmiyyət daşıyır: "Yəni bu qurum Rusiyanın təsir dairəsində olan bir sorğu mərkəzidirmi, yoxsa neytral mövqedə dayanır? Əslində Rusiyada neytral və tam müstəqil sorğu təşkilatından danışmaq, demək olar ki, mümkünsüzdür".



Üzeyir Şəfiyev hesab edir ki, belə mühitdə aparılan sorğuların nəticələrinə inanmaq çətindir: "Əgər sorğu Rusiyada aparılıbsa, onun etibarlılıq dərəcəsi çox aşağıdır. Hazırkı avtoritar, totalitar rejim şəraitində, tənqiddən kənar fəaliyyət göstərən müstəqil sorğu mərkəzlərinin mövcudluğu real deyil. Son illərdə Putinin həm müxalifətə, həm də müstəqil düşüncəyə qarşı "bizimlə olmayan, düşməndir" prizmasından yanaşdığı açıq görünür. Fərqli düşünənlər dövlət səviyyəsində təzyiqə, bəzən də terrora məruz qalır. Bu da cəmiyyətdə böyük qorxu və təşviş yaradır. Belə mühitdə respondentlərin təsirdən kənar, azad rəy bildirməsi qeyri-mümkündür.

Vətəndaş yaxşı bilir ki, Rusiyada Putinin müharibə siyasətinə qarşı çıxmaq hətta ölümlə nəticələnə bilər. Kifayət qədər tanınmış imza sahibləri, sənət adamları var ki, etiraz etdiklərinə görə təzyiqə məruz qalıb, ölkəni tərk etməyə məcbur olublar. Bütün bunları isə Rusiya cəmiyyəti görür. Ona görə də keçirilən həmin sorğunun nəticələrini ciddi şəkildə şübhə altına alıram. İkincisi, əgər bu gün respondentlər "bizim bir müttəfiqimiz var, o da ordumuzdur" deyirlərsə, bu, Rusiyanın beynəlxalq təcrid vəziyyətində olduğunu göstərir. Bu, həm də onu sübut edir ki, Rusiya etibarlı tərəfdaş deyil - nə başqa dövlətlərə qarşı, nə də öz müttəfiqləri üçün. Çünki bir sıra mürəkkəb və gərgin situasiyalarda Moskvanın tərəfdaşlarını yardımsız vəziyyətdə buraxdığı məlumdur. İran və digər dövlətlərə münasibətdə də bunu aydın görmək olar.

Bundan başqa, sorğuda saxtakarlıq ehtimalı da var. Eyni zamanda Putin müharibədən həm daxili sabitliyi qorumaq, həm də hakimiyyətini uzatmaq üçün istifadə edir. İnsanları psixoloji olaraq təsir altına alaraq hamını "böyük Rusiya" ideyasına inandırır. Hətta orta statistik vətəndaş belə bu təbliğata uymuş, "ümumi düşmənə qarşı mübarizə" atmosferinə qoşulmuş vəziyyətdədir. Biz görürük ki, fərqli düşünən insanlar belə Rusiya-Ukrayna müharibəsində eyni soydan olan ukraynalılara qarşı aqressiv, həqarətli ifadələr işlədiblər. Bu, təkcə ukraynalılara deyil, ümumən qeyri-ruslara qarşı da toksik, düşmənçi bir mühitin formalaşdığını göstərir.

Bu, əslində faşizm və nasizmin təzahürüdür. Putin Rusiyada belə bir toksik mühiti yaratmağı bacarıb. Ona görə də bu gün orta statistik rusiyalının bu düşüncədə olması təəccüb doğurmamalıdır. Beləliklə, Rusiya bu gün Avropanın "xəstə adamı"na çevrilib.

Putinin çıxışlarında da görürük ki, o, Rusiyanı 60 illik müharibəyə səsləyir və bu müddətə hazır olmağa çağırır. Bu isə o deməkdir ki, Rusiya Ukrayna bataqlığından salamat çıxarsa, Mərkəzi Asiya, Cənubi Qafqaz ölkələri, eləcə də Baltikyanı dövlətlər üçün ciddi təhdidə çevriləcək. Ona görə də ABŞ strateqləri və Avropa siyasətçiləri bunun fərqində olmalı, anlamalıdırlar ki, Rusiya Ukrayna müharibəsindən qələbə ilə çıxsa belə, bu, Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün də təhlükədir. Beləliklə, dünya Putinizm, faşizm və nasizmin yeni dalğası ilə üz-üzə qala bilər".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 137 (8747) 7 avqust 2025

Rusiya Mərkəzi Asiyanı "qaz iynəsi"nə oturda biləcəkmi?

Bir neçə gün öncə Ukrayna Volqoqrad ərazisində Rusiyadan Qazaxıstan və Özbəkistana qaz nəql edən Mərkəzi Asiya-Mərkəz qaz kəmərini partladıb. Ukrayna mətbuatı köhnə məlumata istinadla kəmərin Türkmənistandan Rusiya vasitəsilə Özbəkistan və Qazaxıstana qaz daşıdığını yayıb. Halbuki 2023-cü ildən başlayaraq bir vaxtlar Mərkəzi Asiyadan qazı Rusiya və digər postsovet respublikalarına daşıyan kəmər tərsinə işləyərək, Mərkəzi Asiyanı getdikcə daha çox Rusiyanın qaz tələsinə sürükləyir.



Məsələ burasındadır ki, son onillikdə Özbəkistanda qaz hasilatı ildən-ilə azalır, Qazaxıstanda isə artan tələbatı ödəyəcək sürətlə artmır. Rəsmi statistikaya əsasən, 2025-ci ilin birinci yarısında Özbəkistanda qaz hasilatı 3,1 faiz azalaraq 21,8 milyard kubmetrə düşüb. 2024-cü ildə isə azalma 4,5 faiz təşkil etmişdi (44,6 milyard kubmetrə qədər). Bununla yanaşı, elektrik enerjisinin 75 faizinin qazdan əldə edildiyi ölkədə istehlak istehsalı sürətlə üstələyir. Qazaxıstanda da vəziyyət ürəkaçan deyil: 2030-cu ilə qədər tələbat ildə 40 milyard kubmetrə çata bilər və indi hasil edilən qazın yarısı daxili ehtiyaclara sərf olunur. Türkmənistan hələ də ixracatçı statusunu qoruyur, lakin hətta orada 2024-cü ildə istehsal 3-3,7 faiz azalıb (77,6 milyard kubmetrə qədər). Qırğızıstan və Tacikistan tamamilə idxaldan asılıdır, Rusiya 2023-cü ildə Qırğızıstan qazının 89 faizini təmin edib.

Hesablamalara əsasən yaxın illərdə regionun hər il 20-25 milyard kubmetr qaz idxalına ehtiyacı ola bilər və Avropa qaz bazarından qovulan Rusiya bu boşluğu doldurmaqdan məmnundur. Nəhəng qaz yataqları üzərində oturan ölkələr indi şimal qonşusundan yanacaq "dilənməyə" məcburdurlar.

2023-cü ilin oktyabrında rəsmi olaraq, Qazaxıstan, Özbəkistan və Rusiya prezidentləri Qazaxıstan vasitəsilə Rusiyadan Özbəkistana qaz nəqlinə başlandığını elan etdilər. İki illik müqavilə ildə 2,8 milyard kubmetr qaz tədarükünü nəzərdə tuturdu. Bir müddət sonra Rusiya Milli Enerji Təhlükəsizliyi Fondunun rəhbərinin müavini Aleksey Qrivaç bildirib ki, Qazaxıstan və Özbəkistanla əməkdaşlıq, potensial tədarük həcmi ildə 10-12 milyard kubmetrə qədər olan Mərkəzi Asiya - Mərkəz qaz kəmərinin ötürmə qabiliyyətinin əks rejimdə artırılmasına yönəlib. Və artıq bu ilin yanvarında daha bir rəqəm açıqlanıb: "Rusiya Mərkəzi Asiyaya qaz nəqlini ildə 15 milyard kubmetrə qədər artırmağı planlaşdırır". Halbuki işə salınma mərasimində Vladimir Putin 1960-cı illərdə tikilmiş Mərkəzi Asiya - Mərkəz qaz kəməri ilə Özbəkistanın SSRİ-nin səkkiz respublikasına ildə təxminən 80 milyard kubmetr qaz verdiyini xatırladıb: "İndi bu kəmər əks rejimdə işləyəcək və Özbəkistanın və qismən də Qazaxıstanın dinamik inkişaf edən iqtisadiyyatını etibarlı şəkildə təmin edəcək", - o bildirib. Lakin artıq 2024-cü ilin noyabrında Özbəkistan Respublikası Mərkəzi Bankının sədri Mamarizo Nurmuratov etiraf etdi ki, bir təchizatçıdan asılılıq həmişə risklər yaradır.

Özbəkistan 2023-cü ilin qışında bütün ölkə boyu enerji böhranına məruz qaldı. Bunun əsas səbəbi qaz çatışmazlığı idi: ölkə Çinə qaz satmağı üzərinə götürüb, daxili istehlak üçün öhdəliyini tam iqnor edə bilmir: məcburdur heç olmasa minimal həcmlərin nəqlini təmin etsin. Bu, köhnələn yataqlardan hasilatın azaldığı, istehlakın isə artdığı bir vaxtda ölkədə qaz çatışmazlığına səbəb olur. Yerli ekspertlərə görə, hasilatın azalmasında rusiyalı biznesmen Gennadi Timçenkonun şirkətlərinə istismara verilən yataqlar üstün paya malikdir. Buna görə də şirkətlərin hasilatı qəsdən azaldaraq Özbəkistanı Rusiyadan qaz almağa vadar etmək istədikləri ehtimalı böyükdür. Qışda bütün ölkəboyu yaranan kəskin enerji böhranı Özbəkistan hökumətini 2023-cü ilin ortalarında qaz tədarükü ilə bağlı müqavilə imzalamaq üçün Moskvaya üz tutmağa məcbur etdi. Beləliklə, Qazaxıstan və Özbəkistan artıq daxili tələbatı ödəyə bilmir, Qırğızıstan və Tacikistan isə rusların sevincli hesablamalarına görə, Rusiya olmadan işıqsız və istiliksiz qalacaqdılar. Türkmənistan qazla tam təminatı saxlasa da, ixrac ambisiyaları qonşularını xilas etməkdənsə, getdikcə daha çox xarici təchizata yönəlir. Dünyada qaz ehtiyatlarına görə 4-cü yerdə olan bu ölkə ildə 80 milyard kubmetrə qədər qaz hasil edir ki, onun da təxminən yarısı ixrac olunur. Daxili istehlakçılar arasında sənaye müəssisələri əhəmiyyətli dərəcədə üstünlük təşkil edir.

Türkmən qazının əsas ixrac istiqaməti Çindir (2023-cü ildə təxminən 40 milyard kubmetr, 2024-cü ildə bir qədər az). Bu, bütün Türkmənistan qazının ixracının 95 faizindən çoxunu təşkil edir. Türkmənistan üçün əsas problem Çinin qazı bazar dəyərindən xeyli ucuz almasıdır. Lakin buna baxmayaraq, digər Mərkəzi Asiya dövlətlərindən fərqli olaraq türkmənlər Rusiyadan qaz asılılığına düşmək təhlükəsindən xeyli uzaqdılar. Hazırda Berdumuhammedovlar əsas diqqəti qazın yeni bazara - Avropaya çıxarılması üçün yollar axtarışına yönəldiblər.

Gözləntilərə görə, ortamüddətli perspektivdə (5-10 il) Rusiya qazından asılılıq Mərkəzi Asiya üçün bir sıra problemlər yarada bilər: ilk illərdə qazı ucuz satan Rusiya region onun "qaz iynəsi"nə oturduqdan sonra istədiyi qiyməti və şərtləri diqtə etmək imkanı qazanacaq. Əgər "Qazprom" qiymətləri artırmaq və ya tədarükü azaltmaq qərarına gəlsə, yerli iqtisadiyyatlar çətin vəziyyətdə qalacaq. Nəzərə alsaq ki, qaz Özbəkistanın elektrik enerjisinin 75 faizini təşkil edir, tədarükdə hər hansı bir fasilə enerji böhranına səbəb ola bilər.

Digər tərəfdən, məlumdur ki, qaz Rusiyanın əlində təkcə yanacaq deyil, həm də təsir alətidir. Rusiya dəfələrlə sübut edib ki, geosiyasi məqsədlərə çatmaq üçün enerjidən rıçaq kimi istifadə edə bilər. Artıq Rusiya, Çin və Qərbin maraqları arasında tarazlıq quran Mərkəzi Asiya Kremlin əhval-ruhiyyəsindən daha çox asılı olmaq riski ilə üz-üzədir.

TAPI (Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan) qaz kəməri və ya Türkmənistan-Çin tədarükünün artırılması kimi alternativ marşrutlara olan ümidlər hələlik arzu olaraq qalır. Layihələr Qaraqum səhrasında karvandan daha ləng gedir, Rusiya isə öz mövqelərini gücləndirir.

Bəs bu təchizatlardan gələn pullar hara gedir? Sanksiyalar altında olan Rusiya iqtisadiyyatı hər bir rubla (tenge, sum, somoni) ehtiyac duyur. Mərkəzi Asiyaya qaz ixracından əldə olunan gəlirlər büdcədəki boşluqları aradan qaldırmağa, sosial proqramları maliyyələşdirməyə və əhalinin loyallığını qorumağa kömək edir. Qeyd edək ki, mətbuatda yayılan məlumatlara görə, bu il Rusiya büdcəsinin 40 faizə qədəri müharibəyə sərf olunacaq. "Qazprom" isə Rusiyanın sabitliyinin əsas sponsorlarından biridir. Vəsaitlərin bir hissəsi, yəqin ki, Mərkəzi Asiyanı ayaqda saxlamaq üçün qaz nəqli sisteminin modernləşdirilməsinə gedir. Yeni boru kəmərləri, kompressor stansiyaları və terminallar - bütün bunlar pul tələb edir, lakin uzunmüddətli təsir şəklində öz bəhrəsini verir. Bundan əlavə, Rusiya öz xarici siyasət ambisiyalarını maliyyələşdirmək üçün qaz gəlirlərindən fəal istifadə edir. Buraya müttəfiqlərə dəstək, hərbi xərclər və "böyük enerji gücü" imicini gücləndirmək üçün təbliğat kampaniyaları daxildir. Paradoksaldır ki, Mərkəzi Asiya Rusiya qazını almaqla şaxələndirməyə çalışdığı təsirin gücləndirilməsini dolayı yolla maliyyələşdirir. Mərkəzi Asiyaya tədarüklər Avropa bazarını əvəzləməsə də, şübhəsiz ki, Rusiyaya maliyyə axınını qoruyub saxlamağa kömək edir, onun hələ də bazarları olduğunu nümayiş etdirir. Mərkəzi Asiya üçün isə bu pullar, faktiki olaraq, öz enerji asılılığına sərmayədir.

Dörd il əvvəl Qırğızıstanın o vaxtkı baş nazirinin müavini Erkin Asrandiyev qonşuları haqqında danışarkən demişdi ki, Rusiya ilə müqavilənin şərtlərinə görə qazın qiyməti ABŞ dolları ilə müəyyən edilir və bu, Qırğızıstanı dolların məzənnəsinin yüksəlməsinə qarşı həssas edir. 2024-cü ilin noyabrında isə Rusiya mediası iki ölkə arasında ticarətin bütün tarixində maksimum həddə çatdığını qürurla yazıb və qeyd edib ki, ümumilikdə, 2024-cü ilin yanvar-avqust aylarında Qazaxıstan Rusiyadan 353,4 milyon dollarlıq təbii qaz idxal edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə çoxdur. Eyni zamanda həmin il səkkiz ay ərzində Rusiya qazının idxalının ümumi həcmi tarixdə ən yüksək həddə çatıb. Qazaxıstan rəsmilərinin dediyinə görə, hazırda 2026-cı ilə qədər Rusiyadan "Mərkəzi Asiya - Mərkəz" sistemi ilə tranziti 11 milyard kubmetrə çatdırmaq planlaşdırılır.

Bütün bu baş verənlərin fonunda Özbəkistanda ümidverici proseslər qeydə alınmaqdadır: hökumət böyük miqyaslı günəş elektrik stansiyaları tikmək üçün ilk növbədə Çindən olan xarici investorları dəvət edərək bərpa olunan enerji mənbələrinə istiqamətlənib. Artıq Özbəkistanda bərpaolunan enerji istehsalını 2030-cu ilə qədər ölkənin ümumi enerji istehsalının 40 faizi həcminə çatdırmaq üzrə ilkin planlara bu yaxınlarda yuxarıya doğru yenidən baxılıb - indi 2030-cu ilə qədər bərpa olunan enerji sektorunun ölkənin ümumi enerji balansında 54 faizlik payına nail olmaq planlaşdırılır.

Qazaxıstan da alternativ enerjiyə böyük yatırımları nəzərdə tutan layihələrin icrasına başlayır. Hər iki ölkə Azərbaycanla birlikdə alternativ mənbələrdən əldə olunan enerjinin Avropaya ixracını nəzərdə tutan layihədə birləşiblər. Bu layihələr reallaşarsa, həm Özbəkistan, həm Qazaxıstan Rusiyanın enerji asılılığından böyük ölçüdə azad ola bilərlər. Bu, həm də Qırğızıstan üçün qapı açа bilər: hər iki ölkə qonşularına enerji satmaqla onun Rusiya qazından asılılığını azaltmasına imkan yaradarlar.

Nəhayət, daha bir müsbət proses Türkmənistanın uzunmüddətli neytrallıqdan çıxmağa başlayaraq Azərbaycan və Türkiyənin araçılığı ilə Mərkəzi Asiyanın digər dövlətləri ilə inteqrasiyanı genişləndirməsidir. Bu proses həm də bölgənin qaz ehtiyacının ödənməsi baxımından Rusiyadan asılılığın azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir.

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclər

YENİ MÜSAVAT
N 137 (8747) 7 avqust 2025

Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

SOS! Uşaqlarımızı pedofillərdən necə qoruyaq?

Qanunlar sərtləşdirilsin, yoxsa müalicə intensivləşsin? Psixoloqlar bir üsulu müdafiə edir, hüquqşünaslar digərini...

Xəbər verdiyimiz kimi, sosial şəbəkələrdə Sabirabadda kişinin azyaşlıya qarşı əxlaqsız hərəkətlər etməsini əks etdirən görüntülər yayılıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu məsələ ilə bağlı məlumat yayaraq həmin şəxsin saxlanıldığını bildirib: "Görüntülərdəki şəxsin Sabirabad rayonu Qaratəpə kənd sakini 64 yaşlı M.Hüseynovun olduğu müəyyən edilərək dərhal rayon polis əməkdaşları tərəfindən saxlanılıb".



O qeyd edib ki, faktla bağlı araşdırmalara başlanılıb və həmin şəxsin törətdiyi əməllərə hüquqi qiymət verilməsi üçün tədbirlər görülür.

DİN mətbuat xidmətinin regional qrupundan bildirilib ki, şəxsin azyaşlıya qarşı hüquqazidd hərəkətləri ilə bağlı prosessual tədbirlər görülür: "Görüntülərdəki şəxs - Sabirabad rayonu Qaratəpə kənd sakini 64 yaşlı Mərdan Hüseynov polis əməkdaşları tərəfindən saxlanılaraq məsuliyyətə cəlb olunub. Fakta görə rayon polis şöbəsində cinayət işi başlanıb, M.Hüseynov həbs edilib".

Fakta görə başlanan cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

Sosial şəbəkələrdə rezonans doğuran hadisənin "qəhrəmanı" barəsində hansı hüquqi addımın atılacağı ilə bağlı məsələ də gündəmə gəlib. Hamı bu olayın özünə, öz övladına qarşı təhlükə təşkil etdiyini düşünür və bu cür uşaqbazların sayının cəmiyyətdə artmasından narahatdır.

Əslində cəmiyyət olaraq bu hallara qarşı necə mübarizə aparmalıyıq? Bu şəxslər xəstədir, ya cinayətkar? Türmə onlar üçün islah yeridirmi? Yoxsa oradan daha təhlükəli bir fərd olaraq azadlığa çıxır?

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.1-ci maddəsinə əsasən zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmədörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər yetkinlik yaşına çatmayan şəxsə (uşaqlara) qarşı törədildikdə - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmin məcəllənin 151-ci maddəsinə əsasən, əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərərçəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmə-bir ildən iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Cinayət Məcəlləsində bu əmələ görə cəzalar kifayət qədər ağırdır. Habelə qeyd etmək zəruridir ki, cəzanın məqsədi qisas almaq deyil, cinayət törədən şəxsi islah etməkdir.

Tarix boyu müşahidələr onu göstərib ki, cəzalar sərt olan yerlərdə cinayətlərin sayı çoxalır. Cinayətkarlar bir növ ağır cəzalara immunitet qazanır. Ona görə də cəza qisas məqsədilə yox, şəxsin islah olunub cəmiyyətə geri qayıtması məqsədilə verilir.

Qırğızıstan parlamentində uşaqlara və yetkinlik yaşına çatmayanlara qarşı cinsi təcavüz cinayəti törədən şəxsin axtalanmasını nəzərdə tutan qanun qəbul edib. Bakasov ölkənin məhkəmə sistemində cəzaların azaldılması tendensiyasına diqqət çəkib və qanun layihəsində uşaqlara və yetkinlik yaşına çatmayanlara qarşı cinsi istismarın qarşısının alınması üçün cəzaların ağırlaşdırılmasının nəzərdə tutulduğunu bildirib.

Bakasov uşaqlara və yetkinlik yaşına çatmayanlara qarşı cinsi zorakılıq (təcavüz) törətməkdə təqsirli bilinən məhkumlara verilən cəzanın 20 ilədək artırılmasını və ya ömürlük azadlıqdan məhrumetmə cəzasının təyin olunmasını təklif edib. O, həmçinin məhbusun azadlığa çıxmasına 6 ay qalmış psixiatrların nəzarətində və pedofiliyaya meyllilik halında axtalanmasını təklif edib.

Təklif Qırğızıstan Milli Məclisin Baş Assambleyasında müzakirə olunduqdan sonra təsdiqlənərsə, qanun qüvvəyə minəcək.

Psixoloqlar isə bildirir ki, uşaqlara bu istiqamətdə doğru tərbiyə verilməlidir. Azərbaycanda bu tərbiyə aparılmır. Uşaqlar düzgün cinsi tərbiyə olunmalıdır. Bu, uşaqlara intim əlaqəni izah etmək demək deyil. Bu, "bir qızdan xanımı, bir oğlandan bəyi necə yetişdirmək olar" mövzusunun psixoloji əsaslarıdır. Uşaqlara izah olunmalıdır ki, onlar yad insanlarla necə təmasda olmalıdır, kimin hansı sözlərinə inanmaq olar, kimin yox və s. Çünki heç vaxt mümkün deyil ki, uşaqlar pedofili hansısa cəhətlərinə görə tanısınlar. Yəni ona görə də biz uşaqlara davranış və sərhədlər təlimləri verməliyik. Azərbaycanda böyük problemlərdən biri də budur ki, insanlar bir-birilərinin sərhədlərini tanımaq istəmirlər.

Və burada ən vacib məqam heç şübhəsiz ki, uşağa onun sərhədlərinin hara qədər olduğunu öyrətməkdir. Alimlər izah edir ki, qohum ona hansı sərhədlə yaxınlaşa bilər, yad necə yaxınlaşa bilər kimi məqamları uşaqlara öyrətmək lazımdır. Bunları psixoloji əsaslarla etməliyik ki, gələcəkdə başqa problemlər yaşanmasın. Onları haqsız yerə qorxutmaq da olmaz. Bu kimi təlimlər psixoterapevtlər, klinik psixoloqlar tərəfindən aparılmalıdır. Həmçinin məktəb psixoloqları və bağça psixoloqları da bu məsələdə uşaqları tərbiyələndirməlidir...

Azyaşlı uşaqlara qarşı zorakı hərəkətlərə yol vermiş şəxslərə, xüsusilə də seksual manyaklara qarşı sərt təkliflər illərdir ki, dünya dövlətlərində müzakirə mövzusudur. Elə dövlətlər var ki, artıq müzakirələr yekunlaşıb, qanunlar dəyişdirilib və kastrasiya qanunilə-şib. Yəni azyaşlıya qarşı cinsi zəmində zorakılıq etmiş şəxslər kimyəvi maddələr yeridilməklə cinsiyyət orqanlarının funksiyası ömürlük sıradan çıxarılır və ya axtalanmaqla cəzalandırılır.


Polşada 15 yaşadək uşaqları və ya yaxın qohumlarını zorlayan cinayətkarların axtalanmasıı məcburidir. Bu qanun müzakirə edilərkən qanunun qəbulunun əleyhinə yalnız 3 deputat səs verib. Qanunla həmçinin uşaqbazların və ya qan qohumları (valideynlər, övladlar, bacı və qardaşlar) ilə cinsi əlaqədə təqsirli bilinənlərin azadlıqdan məhrumetmə müddəti artırılıb. İndi Polşada cinayət məsuliyyətinə cəlb olunan şəxslərə ya "Açetat çiproteron" verilir, ya da hər ay "Leupropelin" iynəsi vurulur. Bu preparatlar kişi cinsi hormonlarının təsirini yatırır. İsraildə bu məqsədlə "Dekapeptil" istifadə edilir ki, bu da qeyri-təbii seksual ehtiyacları azaldır. Kimyəvi axtalanmada cinayətkarın qanına kişi hormonu olan testosteronun miqdarını sıfıra endirən inyeksiyanın yeridilməsi nəzərdə tutulur. Bu əməliyyatdan sonra azadlığa çıxsa belə, uşaqbazı cinayətkarlığa sürükləyən əvvəlki "vərdiş"i tamamilə aradan qalxır.

ABŞ-ın bəzi ştatlarında da uşaqbazlara kimyəvi axtalanma cəzası verilir. Hətta cərrahi axtalanma da var, amma bu əməliyyat cinayətkarın şəxsi razılığı əsasında həyata keçirilə bilər. Almaniyada isə kimyəvi axtalanmaya ildə 6 nəfər uşaqbaz məruz qalır. Fransada da uşaqbazlar bu cür cəzalandırılır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

Tibbi arayış böhranı: körpələrlə növbə dərdi - həll yolu nədir?

TƏBİB-in tabeliyindəki tibb müəssisələrində - xəstəxana və poliklinikalarda tibbi arayış almaq böyük problemə çevrilib. Bu səbəbdən xəstəxanalarda uzun növbələrin olması artıq hamıya məlumdur. Vətəndaşlar bildirirlər ki, bir arayış almaq üçün günlərlə xəstəxana növbələrində gözləsələr də, həkim qəbuluna düşməkdə çətinlik çəkirlər.



Məsələn, yaxın günlərdə bir vətəndaş sosial şəbəkədə yazıb ki, uşağını bağçaya qoymaq üçün ondan tibbi arayış tələb olunub. Arayışı almaq üçün Abşeron Rayon Mərkəzi Xəstəxanasına müraciət edən ana səhər saat 9-da xəstəxanaya çatanda özünü 1780-ci sırada görüb. 1 yaşlı körpə ilə uzun növbəni gözləyə bilməyən ana məcburiyyət qarşısında qalaraq evə qayıdıb.

Professor Adil Qeybulla məsələ ilə bağlı bildirib ki, körpələrin xəstəxanalarda uzun müddət növbədə qalması yolverilməzdir (Qaynarinfo): "Bütövlükdə İcbari Tibbi Sığorta sisteminin problemi ondadır ki, bu sistem qurularkən heç bir məsləhətləşmə aparılmadı, proses imperativ qaydada həyata keçirildi. Nə randevu, nə də infrastruktur sistemi yaradıldı. Sadəcə, əhaliyə müəyyən izahatlar verildi, vəssalam. Nəticə isə göz qabağındadır - körpə uşaqlar bir arayış almaq üçün xəstəxanalarda gözləyirlər".

Adil Qeybulla təəssüf hissi ilə vurğulayıb ki, hələ də randevu sistemi qurulmayıb: "Əgər bu gün uşaq uzun müddət xəstəxanada növbədə qalırsa, bu artıq sistemin düzgün işləmədiyini göstərir. Yaxşı olardı ki, Avropa ölkələrində olduğu kimi ailə həkimi institutu yaradılsın. Düzdür, bizdə sahə həkimi var. Məncə, analizlərdən sonra uşağa arayışın elektron qaydada verilməsi daha məqsədəuyğun olar. Görüləsi işlər çoxdur və bunların həlli əslində asandır. Təəssüf ki, hər şey olduğu kimi qalır. Fakt budur".

Xarici dillər təmayüllü gimnaziyada ibtidai siniflər bağlanır?

Son günlər Lənkəran şəhəri xarici dillər təmayüllü internat tipli gimnaziyanın gələcək taleyi ilə bağlı yayılan xəbərlər valideynlər və müəllimlər arasında ciddi narahatlığa səbəb olub. İlkin mərhələdə yalnız məktəbin adının dəyişdiriləcəyi bildirilsə də, hazırda ibtidai bölmənin bağlanacağı ilə bağlı yayılan məlumatlar narahatlığı daha da dərinləşdirib.



Valideynlər və pedaqoji kollektiv bu dəyişikliklərin uşaqların təhsilinə və sosial inkişafına mənfi təsir göstərə biləcəyini düşünürlər. Onlar aidiyyəti qurumlardan məsələ ilə bağlı rəsmi açıqlama verilməsini və yaranan qeyri-müəyyənliyə son qoyulmasını tələb edirlər.

AzEdu.az məsələyə aydınlıq gətirmək üçün Lənkəran-Astara Regional Təhsil İdarəsinə sorğu ünvanlayıb. Sorğuya cavab olaraq bildirilib ki, son günlər Lənkəran şəhəri xarici dillər təmayüllü internat tipli gimnaziyanın fəaliyyətinin dayandırılması, ibtidai siniflərin ləğv olunması və ya digər təhsil müəssisələrinə köçürülməsi ilə bağlı həqiqəti əks etdirməyən məlumatlar yayılıb.

"Sözügedən təhsil müəssisəsində yeni tədris ilindən təmayül istiqamətlərinin genişləndirilərək xarici dillərlə yanaşı, digər humanitar sahələri də əhatə etməsi planlaşdırılır. Xarici dillər istiqamətində təhsil alan şagirdlərin təhsili məhdudlaşmır, əlavə olaraq sosial-humanitar (tarix və s.) istiqamətlərdə yeni imkanlar yaradılır. Bu isə şagirdlərin seçim imkanlarını artırmaqla yanaşı, onların maraq və biliklərinə uyğun daha geniş təhsil mühiti formalaşdıracaq. Həmçinin təhsil müəssisəsindəki ibtidai sinif şagirdlərinin başqa müəssisələrə köçürülməsi, yeməkxananın ləğv edilməsi və müəssisədə çalışan əməkdaşların fəaliyyətinə xitam verilməsi məsələləri müzakirə mövzusu deyil. Şagirdlər əvvəlki illərdə olduğu qaydada təhsillərini öz gimnaziyalarında (uzadılmış gün rejimində) davam etdirəcəklər. Hazırda birinci siniflərə qəbul prosesi davam edir. Qısası, təhsil müəssisəsi öz fəaliyyətini tam qaydasında davam etdirir və yeni tədris ilinə daha geniş imkanlarla hazırlaşır".



Qlobal ticarətlə bağlı şok proqnoz - Azərbaycanın gözləntisi

İqtisadçı: "Təzyiqlər artarsa, orta, uzunmüddətli dövrdə davamlı xarakter alarsa, manatın məzənnəsinin stabilliyinə mənfi təsir göstərmə ehtimalı artacaq"

"ABŞ-ın son 90 ildə ən sərt olacaq yeni tarifləri tətbiq etməsi səbəbindən qlobal ticarət ciddi nəticələrlə üzləşə bilər".

Bu barədə "Bloomberg" xəbərdarlıq edib. Agentliyin ekspertlərinə görə, yaxın günlərdə orta göstərici 13,3%-dən 15,2%-ə yüksələ bilər. Növbəti iki-üç il ərzində ABŞ-ın ümumi daxili məhsulu 1,8% azala, inflyasiya isə 1,1 faiz bəndi yüksələ bilər. Buna əsasən müəssisələr və istehlakçılar çox tez bir zamanda çoxlu xərclərlə üzləşəcəklər.

Mütəxəssislər hesab edirlər ki, bu xəbər ABŞ-ın yeni ticarət tariflərinin qlobal iqtisadiyyata təsirini və onun uzunmüddətli nəticələrini ortaya qoyur. Əgər ABŞ-da tariflər 13,3%-dən 15,2%-ə yüksəlirsə, bu, beynəlxalq ticarətə ciddi təsir göstərəcək. Azərbaycan üçün də bu təsirlər əhəmiyyətli ola bilər, çünki biz qlobal ticarət şəbəkəsinin bir hissəsiyik və əksər məhsulların qiymətləri xarici bazarlarda baş verən dəyişikliklərdən asılıdır.

Azərbaycanın ərzaq təhlükəsizliyi üçün bu, idxal edilən ərzaq məhsullarının qiymətinin artmasına və nəticədə yerli bazarda da qiymət artımına səbəb ola bilər.

Ekspertlər hesab edirlər ki, Azərbaycan iqtisadiyyatı daha da diversifikasiya edilməli, xüsusilə qeyri-neft sektoru inkişaf etdirilməlidir. Bu, ölkənin xarici ticarətə olan asılılığını azaldacaq.

Xüsusilə kənd təsərrüfatı və istehsalat sahələrində texnologiya və innovasiyaların inkişafı və tətbiqi yerli istehsalı artırmağa kömək edə bilər. Azərbaycanın bu yeni vəziyyətə uyğunlaşmaq üçün iqtisadiyyatın müxtəlif sahələrində müvafiq islahatlar və tədbirlər görməsi vacibdir. Tariflərin artması həm qlobal bazarda, həm də yerli iqtisadiyyatda bir sıra çətinliklər yarada bilər, amma düzgün strategiyalar və qabaqlayıcı addımlar atılarsa, bu təsirlər minimuma endirilə bilər.

İqtisadçı Rəşad Həsənov bu qənaətdədir ki, 2025-ci ilin əvvəlindən etibarən qlobal iqtisadi artım dinamikası, eyni zamanda iqtisadi münasibətlər, gələcək iqtisadi inteqrasiya istiqamətində ən böyük risk ABŞ administrasiyasının həyata keçirməkdə olduğu heteredoks iqtisadi siyasətdir. O vurğuladı ki, bu istiqamətdə ciddi narahatlıqlar var: "Müvafiq siyasətin təsirləri ən müxtəlif istiqamətlərdə proqnozlaşdırılır. Təbii ki, ilin əvvəli ilə müqayisədə hazırda nisbətən daha rasional məcraya, ən azı uzlaşdırılmış tariflər çərçivəsinə yönəlmək istiqamətində meyllər artıb. Bu, qismən gözlənilən neqativ təsirlərin azalması istiqamətində imkanlar formalaşdırır. Amma buna baxmayaraq, müvafiq siyasətin təsirləri qaçılmaz olacaq. İlk növbədə bu, dəyər zəncirində - həm istehsalat, həm də son istehlak üçün xərcləri artıracaq konyuktur formalaşdırır. Bu, həmçinin öz-özlüyündə orta, uzunmüddətli dövrdə inflyasiyanın əsasını yaradır - alıcılıq gücünə mənfi təsir göstərməklə tələb azalır, ÜDM-də artım dinamikası aşağı düşür, hətta bəzi hallarda resessiya fazasından sonra gələn və iqtisadi fəallığın bir müddət davamlı olaraq geriləməsi ilə müşayiət olunan fazası) yaxud resessiyaya paralel olaraq inflyasiya istiqamətində gözləntiləri artırır. Sözügedən amil məşğulluğu risk altına alır. Nəzərə alsaq ki, ABŞ iqtisadiyyatı qlobal iqtisadiyyatın1/4-ni təşkil edir, hazırda əsas iqtisadi mərkəzlər Avropa Birliyi, Çinə müvafiq istiqamətdə təzyiqlər var və bütövlükdə bu prosesin qlobal iqtisadiyyatı əhatə etməsi gözlənilməndir. Bu da enerji bazarlarında qiymətlərin aşağı düşməsinə, dolayısı ilə Azərbaycanın müvafiq istiqamətdə gözlənilən gəlirlərinin aşağı düşməsinə gətirib çıxara bilər, yəni fiskal risk formalaşdırma meyllərinin əsasını qoyula bilər. Digər tərəfdən, bu, orta, uzunmüddətli dövrdə davamlı xarakter alırsa, manatın məzənnəsinin stabilliyinə mənfi təsir göstərmə ehtimalını artırır".

Azərbaycanın idxaldan asılılığı, o cümlədən daxili inflyasiyanın əsasında idxalın dayandığına və bu istiqamətdə təsir gücünün təxminən 60-70 faiz olduğuna diqqət çəkən iqtisadçı bildirdi ki, nəticədə qlobal dəyər zəncirində yaranmış qiymət artımları təzyiqləri Azərbaycan sərhədlərindən daha çox valyutanın çıxışı müqabilində daha yüksək qiymətlərlə məhsulların idxalı mühitini yaradır: "Bu, daxili bazarda inflyasiya meyllərinin nəzarətdə saxlanması istiqamətində əlavə çətinliklər yarada bilər. Eyni zamanda inflyasiya yerli əhalinin, xüsusilə həssas sosial qrupların yaxud büdcədən maliyyələşən ailələrin alıcılıq gücünə mənfi təsir göstərə bilər. Hazırda Azərbaycan hökumətinin görə biləcəyi geniş spektrli tədbirlər, xarici bazarla əlaqədar işlər mövcud deyil. Yalnız daxili iqtisadi siyasət bu istiqamətdə töhfə verə bilər. Daxili iqtisadi mühitin liberallaşdırılması, xüsusilə istehsalın təşviqi ilə bağlı ciddi layihələr ortaya qoyula bilər. Eyni zamanda xarici investisiyanın Azərbaycanda istehsalata yatırılması təşviq oluna bilər. Gömrük vergi siyasətinə yenidən baxmaqla, idxal olunan məhsulların maya dəyərinin azaldılması, yerli vətəndaşın bu istiqamətdə xərclərinin optimallaşdırılması ilə mövqe ortaya qoyula bilər".

❑ **Nigar HƏSƏNLİ,**
"Yeni Müsavat"

Təbrizin imam cüməsinin Azərbaycan təlaşı - məzhəbçiliyin təbliği caizmi?

Ekspertlər qeyd edir ki, İran Azərbaycanın daxili işlərinə qarışmamalıdır



Xəbər verdiyimiz kimi, Təbriz şəhərinin imam cüməsi Əhməd Motəhəri Azərbaycanda təkfiri və sələfi cərəyanların artmasından narahatlığını ifadə edərək, şiə varlığının zəiflədilməsi riskindən danışıb. Onun iddiasına görə, "İsrail və bəzi regional qüvvələr bu radikal qruplaşmalardan istifadə edərək Azərbaycan cəmiyyətinə təsir etməyə çalışır".

Əslində isə Azərbaycanda şiə də var, sünni də var, xristian və yəhudi də. Bu müxtəliflik birgəyaşayış, tolerantlıq və dövlət nəzarətli dini balans prinsipləri ilə qorunur.

Bəs dinimiz məzhəbçiliyin təbliğinə necə baxır? Təbrizin imam cüməsi niyə narahatdır?

Deputat, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "Yeni Müsavat"a açıqlamasında İran rəsmilərinin son dövrlərdə Azərbaycanın daxili işlərinə müdaxilə edən mövqelər sərgilədiyini bildirib. O qeyd edib: "Təəssüflə demək lazımdır ki, son vaxtlar İran rəsmiləri ardıcıl şəkildə Azərbaycanın daxili işlərinə qarışır. Məsələn, bir müddət əvvəl İran Xarici İşlər Nazirliyinin sözçüsü ölkəmizdəki məhbuslarla bağlı fikir səsləndirdi. Ardınca Təbrizin imam cüməsi də oxşar açıqlama verdi. Bundan əvvəl isə digər İran rəsmiləri eyni mövzuda fikirlər irəli sürmüşdülər".

Deputat qeyd edib ki, İranın digər rəsmi şəxsləri prezident Məsud Pezeşkianın münasibətlərə dair verdiyi bəyanatı xatırlamalıdır: "Pezeşkian demişdi ki, "Azərbaycanla dostluq əlaqələri qurmalıyıq. Əgər qura bilməmişiksə, günahı özümüzdə axtarmalıyıq". O, iki ölkə arasında uzun müddət davam edən gərginliyin aradan qalxdığını, münasibətlərin normallaşdığını vurğulamışdı".

Ceyhun Məmmədov hesab edir ki, bu cür açıqlamalardan dərhal sonra Təbrizin imam cüməsinin Azərbaycanla bağlı əsassız və daxili işlərə qarışan bəyanat verməsi yolverilməzdir: "Söylənilənlərin heç bir əsası yoxdur. Azərbaycanda, İrandan fərqli olaraq, dövlət siyasətində məzhəblər arasında ayrı-seçkiliyə yol verilmir. Azərbaycanın dövlət siyasəti tolerantlıq və multikulturalizm prinsiplərinə əsaslanır. İran isə əksinə, məzhəbçilik siyasəti yürüdür və bunu bəluclara qarşı atdığı addımlardan aydın şəkildə görmək mümkündür".

Deputat əlavə edib ki, Azərbaycanda sünni və şiə dindarları tarixən birlikdə yaşayıb, bir-birinə hörmətlə yanaşıblar və bu ənənə bu gün də davam edir: "Azərbaycanda bütün dinlərə və məzhəblərə eyni münasibət göstərilir. Dövlət heç bir fərq qoymur və dindarlara yanaşmada ədalətli mövqe tutur. Getdikcə Azərbaycan dövləti ölkə daxilində kənar təsirlərin qarşısını daha ciddi şəkildə alır. İndi İranın Azərbaycana dini təsir imkanları əvvəlki illərlə müqayisədə xeyli azalıb".

Deputatın fikrincə, bu proses İranı narahat edir: "Məscidlərə yeni din xadimlərinin təyin olunması, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması kimi addımlar İranı ciddi şəkildə narahat edir. Eyni zamanda Azərbaycanın Türkiyə ilə yaxınlaşması da Tehranda narahatlıq doğurur. Çünki onlar anlayırlar ki, Azərbaycandakı dini şəbəkələrin qarşısı alınır və bu vəziyyəti özləri üçün təhdid hesab edirlər".

Sonda deputat qeyd edib ki, münasibətlərdə normallaşma olsa da, kimlərsə yenidən bu əlaqələri pozmağa çalışır: "İranla münasibətlərimizdə bir müddət gərginlik yaşandı, lakin indi vəziyyət nisbətən düzəlib. Amma görünür, bəzi qüvvələr bu münasibətləri yenidən gərginləşdirmək niyyətindədir. Bu isə bölgəmiz üçün heç bir müsbət nəticə vəd etmir. İranın dini xadimləri öz ölkələrindəki məzhəblərarası münasibətlərə diqqət yetirsinlər, Azərbaycanın daxili işlərinə müdaxilə etməsinlər".

Politoloq Elxan Şahinoğlunun da bu mövzu ilə bağlı fikirləri diqqət çəkir: "Qonşu ölkənin prezidenti Məsud Pezeşkian indiyə qədər İranla Azərbaycan arasında aparılan danışıqlarda uğursuzluğun səbəblərinin araşdırılmasının vacib olduğunu vurğulayıb. Əslində Məsud Pezeşkian gündəmə gətirdiyi sualların cavabını yaxşı bilir, səsləndirməyə ehtiyat edir. "Niyə İranda alınmır, İsraildə alınır" sualının cavabı sadədir. Çünki İranda qərar verən mühafizəkar dairələr Azərbaycanı müstəqil dövlət kimi qəbul etmək istəmirlər, daxili işlərimizə qarışmağı lazım bilirlər. İran işğal dövründə sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini söyləyərkən işğalçılarla əlaqələni kəsmədi. İndinin özündə də mühafizəkarlar "Zəngəzur dəhlizi olmamalıdır" deyib dururlar. Zəngəzur dəhlizinin İrana nə dəxli var? Bu dəhliz Azərbaycandan və Ermənistandan keçəcək, iki dövlət məsələni öz aralarında həll edəcək. İsrail Azərbaycanın daxili işlərinə və müxtəlif dövlətlərlə əlaqələrimizə qarışmır, ölkəmizdə tərəfdar qrupu formalaşdırmır, Zəngəzur dəhlizinin əleyhinə açıqlamalar vermir. Buna görə də Məsud Peşezkianın təbirincə desək, İsraildə alınır, İranda alınmır. Ancaq alınsa, bu hamının, o cümlədən tərəfdaşlığın xeyrinə olar".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"


Restoranlarda "kefimiz belə istəyir" haqq-hesabı - fantastik qiymətlərin səbəbi

Son günlər sosial şəbəkələrdə bir sıra restoran və kafelərin ödəniş qəbzlərinin paylaşılması ictimai qəzəbə səbəb olub. Hər kəsi heyrətə salan məbləğlər müzakirə mövzusuna çevrilib: iki nəfərlik adi bir yemək 124 manata, dörd nəfərlik sadə süfrə 600 manata, altı nəfərlik isə ziyafət isə 1300 manata başa gəlib.

Bundan başqa, sadə suya onqat artıq qiymət yazılıb, maşınların parklanması üçün isə dünyanın heç bir ölkəsində rast gəlinməyən "xidmət haqqı" tutulub. Bəzi obyektlərdə menyuda göstərilməyən fantastik xidmət xərcləri də hesabın üzərinə əlavə edilir. İaşə sektorunda "kefimiz belə istəyir" devizi sanki qanuna çevrilib.

İstehlakçı hüquqları üzrə ekspert Eyyub Hüseynov Musavat.com-a açıqlamasında bildirib ki, qanunvericilik iaşə obyektlərinin qiymət siyasətinə müdaxilə etmir, lakin şəffaflıq tələb edir: "Qanun açıq şəkildə deyir ki, bütün qiymətlər menyuda əvvəlcədən göstərilməlidir və hesab yalnız həmin qiymətlər əsasında hazırlanmalıdır. Əgər menyuda suyun qiyməti 1 manat yazılıbsa, sizdən 10 manat istəyə bilməzlər. Bu, birbaşa fırıldaq və istehlakçı hüquqlarının pozulmasıdır. Təəssüf ki, çox hallarda qiymətlər menyuda göstərilmir və ya kiçik şriftlə yazılaraq aldatma yolu seçilir".

Onun sözlərinə görə, Azərbaycanda qiymətlərin tənzimlənməsi mexanizmi yalnız dövlət xidmətləri və strateji mallara tətbiq olunur: "Restoran sahibi yeməyə istədiyi qiyməti yaza bilər, amma müştəriyə bu qiyməti əvvəlcədən açıqlamalıdır. Əks halda, bu, qanun pozuntusudur və cərimə tətbiq olunmalıdır. Lakin bizdə bu nəzarət çox zəifdir, sahibkarlar da bundan sui-istifadə edirlər".



Məhsul	Miq.	Qiymət	Məbləğ
ANTRIKOT YABLOCKA	5	14,00	70,00
PENDIR CESIDLERI	2	35,00	70,00
SEZAR SALATI TOYUQ	3	18,00	54,00
XIRT XIRT BADIMCAN	3	16,00	48,00
DANA BASDIRMA	5	15,00	75,00
TOYUQ VE GOBELEK	3	21,00	63,00
HOMEMADE LEMONA	3	12,00	36,00
BLACK TEA	2	8,00	16,00
TOYUQ KABAB	4	8,00	32,00
SIRAB PREMIM	3	8,00	24,00
PARKING	4	10,00	40,00
CHOREK ASSORTI	3	5,00	15,00
SERVIS HAQQI			54,30
CƏMİ ÖDƏNİŞ:			597,30

Ekspert xəbərdarlıq edir ki, bu cür şişirdilmiş qiymətlər təkcə yerli müştərini deyil, ölkənin turizm imicini də zədələyir: "Bu gün Bakıya və bölgələrə gələn turistlər arasında belə şikayətlər çoxdur. İnsan adi bir restoranda nahara 200-300 manat ödədikdə, növbəti dəfə başqa ölkəni seçir. Bu, Azərbaycanın turizm sektoruna birbaşa zərbədir. Biz qiymət siyasətinə nəzarət etməsək, turistləri itirəcəyik".

E.Hüseynov deyir ki, istehlakçı hüquqlarının pozulması hallarına tez-tez rast gəlinir: "Əgər restoranda üzü dənizə tərəf olan süfrədə əyləşmisənsə, 20 manat da əlavə ödəniş etməlisən. "Face-control" (üz tanıma) zamanı üzün xoşlarına gəlmirsə, yaxud da qadınla gəlməmisən deyə içəri buraxmırlar. Biz bu kimi məsələləri dövlət orqanları qarşısında qaldıranda deyirlər ki, onların öz ərazisidir və özləri bilər.

İstehlakçı hüquqlarını qoruyan təşkilat illərlə İqtisadiyyat Nazirliyinin tabeliyində olub və deformasiyaya uğrayıb. İstehlakçı hüquqlarını qoruyan təşkilat İqtisadiyyat Nazirliyinin tərkibində ola bilməzdi. Ölkədə istehlakçı siyasəti bərbad gündədir. 1995-ci ildə qəbul olunmuş "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda 5 dəfə dəyişiklik edilib. Bu dəyişikliklər istehlakçıların zərərinə olub.

Bu il martın 2-də ombudsmanın illik hesabatı parlamentdə dinlənildi. 101 səhifəlik məlumatda bir dəfə də istehlakçı adı çəkilmədi. Mən bu barədə kəskin çıxış etdim. Azərbaycanda istehlakçı hüquqlarını insan hüquqlarının tərkib hissəsi kimi qəbul etmirlər. Belə bir şəraitdə, əlbəttə, özbaşınalıq olacaq və heç kəsin restoranlarda qanuni qiymət formalaşmasına müdaxilə etmək imkanı olmayacaq. Bu məsələ Azərbaycanda turizmin inkişafına birbaşa mənfi təsir göstərir. Hökumət biznes qurumlarının ərköyünlüyünə son qoymalıdır, onları məsuliyyətli fəaliyyətə təhrik etməlidir".

Birlik sədrinin sözlərinə görə, məsələ ilə bağlı turistlərdən şikayətlər də daxil olub: "Amerikadan gəlmiş turist ona çay dəstgahının 50 manata verilməsindən, sadə çay verilmədiyindən şikayət edirdi. Hazırda ölkəmizdə bu sahədə turizmin inkişafına mənfi təsir göstərən proses gedir".

Sosial şəbəkələrdə yayılan qəbz nümunələri göstərir ki, bəzi obyektlər xüsusilə turistlərin çox olduğu ərazilərdə daha sərt qiymət siyasəti yürüdür. Bəzən müştərilər hesabı ödəməkdən imtina etdikdə, onlara qarşı kobud davranış və psixoloji təzyiq halları da baş verir.

Turizm eksperti Ceyhun Aşurov bildirir ki, azad bazar iqtisadiyyatında qiymətlərin qoyulması, xidmətə görə qiymətin müəyyən olunması sərbəstdir, lakin müştərini bu barədə öncədən məlumatlandırmaq lazımdır: "Qiymətlər menyuda öz əksini tapmalıdır. Tariflər bilinməlidir ki, müştəri sonradan sürprizlə qarşılaşmasın. Menyu yoxdursa, qiymət gizlədilirsə və ya hesab gətirilləndə müştəriyə menyudakından fərqli qiymət deyilirsə, bu zaman qanun pozulur. Qanunsuz ödənişlər tələb etmək həm xarici, həm də yerli turistlər üçün də çox narahatedici məqamdır. Bu o deməkdir ki, müştərinin ciddi və əsaslı narazılığı varsa, daha həmin restorana ikinci dəfə getməyəcək, ətrafına da bu haqda məlumat verəcək. Sosial şəbəkələrdə də insanlar restoranların xidməti və qiyməti haqqında rahatlıqla fikirlərini paylaşırlar. Bu da ciddi şəkildə həmin müəssisənin nüfuzuna, gəlirlərinə ciddi şəkildə təsir edə bilər.

Ekspertlər hesab edirlər ki, Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bu sahəyə nəzarəti gücləndirməli, restoran və kafelərdə qiymət şəffaflığına dair vahid standartlar tətbiq etməlidir. Əks halda, Azərbaycan "turist soyğunçuluğu" imici ilə tanınan ölkələr siyahısına düşə bilər.

❑ **Şahanə RƏHİMLİ,**
"Yeni Müsavat"

Bahalı ətin şorbası - qiymətə dövlət müdaxiləsi qaçılmaz olacaq?

Ərzaq təhlükəsizliyi və qiymət artımı: qlobal təcrübələr və yerli bazar



Qırğızıstanda ətin qiymətinin dövlət tərəfindən tənzimlənməsi barədə qərar qəbul edilib. Bildirilir ki, hakimiyyət bu qərarı ətin bahalaşmasının qarşısını almaq, mal-qaranın sərhəddən keçirilməsinə nəzarəti gücləndirmək və onun ixracına kəmiyyət məhdudiyyətləri qoymaq məqsədilə atıb. Bu qərarı zəruri edən səbəblərdən biri heyvandarlıqla əsaslı şəkildə məşğul olan qırğızların qonşu ölkələri öz mal-qaralarını ət qıtlığı yaşayan qonşu ölkələrə satmaqda maraqlı olması, nəticədə Qırğızıstanda ətin bahalaşmasıdır.

Bəs eyni qərarın Azərbaycanda da verilməsi mümkündürmü? Məlumdur ki, ərzaq məhsullarına tələbat hər zaman böyükdür və onların qiymətində baş verən artım əhalinin rifahını pisləşdirir, digər məhsulların da qiymətinə təsir edərək inflyasiyanı gücləndirir. Nəticədə aztəminatlı insanlar uzun müddət ət və ət məhsulları ilə qidalana bilmirlər.

İqtisadçı Fuad İbrahimov "Yeni Müsavat"a şərhində bildirdi ki, ət bazarında dinamik bahalaşma davam edir. Ekspert diqqətə çatdırdı ki, son 20 ildə tədrici bahalaşma müşahidə olunub: "Hazırda bahalaşma pik həddədir və bahalaşmanın davam edəcəyi istisna olunmur. Qiymətin tənzimlənməsi siyasətinə gəlincə, dövlətin strateji məhsullarla bağlı xüsusi yanaşması var. Məsələn, buğda idxal vergisindən azaddır. Eyni zamanda hər tona görə sahibkarlara müəyyən subsidiyalar verilir. Çörəyin qiyməti də mütəmadi tənzimlənir. Əhali tərəfindən istehlak olunan birinci dərəcəli mallar qrupuna elektrik enerjisi, su təchizatı, qaz təchizatı daxildir, eyni zamanda çörək, yağ, şəkər tozu, ət məhsulları birinci dərəcəli ərzaq məhsullarıdır. Bu baxımdan bəzi həssas məqamlarda dövlətin müdaxiləsi prosesin xeyrinə olur. Qırğızıstanda ətin qiymətinin dövlət tərəfindən tənzimlənməsi barədə qərar qiymətin daha da bahalaşmaması üçün ölkədən ət ixracının qarşısını almaq məqsədi daşıyır. Bu, iqtisadiyyatda normal qəbul edilən haldır. Daxili bazarı qorumaq üçün ixracı dayandırmaq olar. Bizdə isə vəziyyət fərqlidir. Azərbaycan idxaldan asılıdır. Ölkəmizə Ukraynadan mal əti, Monqolustandan qoyun əti gətirilir. Qoyun ətinin kilosu topdansatış qiymətinə 11 manatdan satışa çıxarılır. Pərakəndə satışda isə qiymətlər 12-13-14 AZN arasında dəyişir. Hazırda qoyun ətinin kilosu 20 manatdır. Kənd təsərrüfatı sahəsi digər sahələrə şaxələndiyi üçün heyvandarlığı tam güclə inkişaf etdirmək asan deyil. Lakin müşahidələrə görə, kənd təsərrüfatının digər sahələrində də istənilən dinamik artım yoxdur. Daxili bazarda inhisarçılıq formalaşıb. İdxal olunan ət növləri baha satılırsa, bu barədə ciddi fikirləşməliyik".

İqtisadçının fikrincə, məhdudiyyətlərin tətbiq olunması effektiv çıxış yolu deyil, sadəcə, müəyyən məqamlarda müdaxilə qaçılmaz olur: "Dövlət gömrük rüsumlarını ləğv etməklə, daha ucuz ətin idxalına nail ola bilər. Nəzərə almaq lazımdır ki, ət və ət məhsulları əsas etibarilə şadlıq evlərində, kütləvi tədbirlər keçirilərkən istifadə olunur. Bunun hesabına bir növ rəqabət yarandığı üçün bu gün qiymətlər artmır. Hər bir halda hesab edirəm ki, əhali tərəfindən istehlak olunan birinci dərəcəli məhsullara hökumət tərəfindən müdaxilələr məqsədəuyğundur. Bazar iqtisadiyyatı siyasətinə cavab verməsə də, bu, xüsusi hallarda mütləqdir".

Qeyd edək ki, bu cür tənzimləmə tədbirləri təkcə Qırğızıstanda tətbiq olunmur. Məsələn, Hindistanda müxtəlif dövrlərdə soğan, şəkər və buğda kimi əsas ərzaq məhsullarının qiymət artımının qarşısını almaq məqsədilə hökumət ixraca müvəqqəti qadağa qoyur, bu da daxili bazarda ərzaq təminatını gücləndirməyə kömək edir.

Argentina da oxşar siyasət yürüdür. 2021-ci ildə, xüsusilə mal əti məhsullarının qiymətində artım müşahidə olunmağa başladıqdan sonra hökumət daxili bazarı qorumaq məqsədilə mal ətinin ixracına məhdudiyyətlər tətbiq edib.

Qazaxıstan da bu tip müdaxilələrə əhəmiyyət verən ölkələrdən biridir. 2017-ci ildən başlayaraq, Qazaxıstan hökuməti ətin və digər ərzaq məhsullarının ixracına kvotalar tətbiq etməyə başlayıb.

Braziliya və Kolumbiyada da ərzaq bazarını tənzimləmək üçün müxtəlif müdaxilələrə rast gəlmək olur. Həmçinin bəzi Avropa ölkələrində də ərzaq qiymətləri, xüsusilə çörək və süd məhsulları kimi gündəlik istifadə olunan məhsullarının qiymətini sabit saxlamaq üçün dövlət müəyyən müdaxilələr edir.

Bu cür tənzimləmələr, xüsusilə iqtisadiyyatın kənd təsərrüfatı sahəsindən asılı olduğu ölkələrdə daha çox baş verir. Belə tədbirlər, qlobal tədarük zəncirlərinin pozulması və ya daxili istehsalın çatışmazlığı vəziyyətlərində yerli bazarın qorunmasına xidmət edir.

Hökumətlərin bazara müdaxilə etməsi, iqtisadi stabilliyi qorumaqla yanaşı, əhalinin gündəlik ərzaq ehtiyaclarını qarşılamağa hesablanır.

❑ **Nigar HƏSƏNLİ,**
"Yeni Müsavat"

Körpələrdə artan infarkt - səhv diaqnoz, yoxsa...

Pediatr: "Belə körpələrin doğulan kimi ürəkləri mütləq şəkildə müayinə olunmalıdır"

Sumqayıt şəhərində yerləşən uşaq xəstəxanasında üzücü hadisə yaşanıb. Sumqayıt şəhər sakini, 6 aylıq körpə Alparslan Elməddin oğlu Cəfərli infarktdan ölüb. Faktla bağlı araşdırma aparılır.

İnvaziv-kardioloq Muxtar Müseyibovun sözlərinə görə, uşaqlarda infarkt səbəbilə baş verən ölüm halları olmur. Onun sözlərinə görə, infarktın səbəbi əmələ gələn laxtaların ürəyi qidalandıran damarları tıxamasıdır: "Uşaqlarda isə adətən anadangəlmə ürək problemləri nəticəsində ölüm halları ola bilər".

Uşaq kardioloqu Elnur İmanov Sherg.az-a bildirib ki, bəzi mürəkkəb anadangəlmə ürək qüsurları uşaqlarda infarkta səbəb ola bilir.

Azərbaycanın ürək-damar cərrahı, millət vəkili Rəşad Mahmudov Redaktor.az-a danışaraq bildirib ki, uşaqda infarktın baş verməsi çox nadir rast gəlinən haldır: "Bu nadir halların səbəbləri arasında doğuşdan gələn ürək qüsurları və tac damarlarında anomaliyalar yer alır. Həmçinin bəzi hallarda ailəvi, genetik keçişli dominant hiperlipidemiya adlı xəstəliklər uşaqlarda erkən yaşlarda infarkta səbəb ola bilər. Bu, qanda xolesterin səviyyəsinin həddən artıq yüksək olması ilə əlaqəlidir. Lakin konkret olaraq bu uşağın vəziyyəti ilə bağlı dəqiq fikir bildirmək çətindir. Çünki infarkt diaqnozunu təsdiqləmək üçün əlimizdə kifayət qədər tibbi məlumat və sübut olmalıdır".

Qeyd edək ki, son illərdə uşaqlarda ürək əməliyyatlarının həcmində böyük artım müşahidə olunub.

Bəs bu problemi öncədən müəyyən eləmək olarmı?

Qeyd edək ki, ürək infarktı əsasən yaşlı insanlara xas olsa da, bəzi xüsusi tibbi vəziyyətlər və genetik pozğunluqlar uşaqlarda da infarkta səbəb ola bilər. İnfarkt - ürəyin bir hissəsinə qan axınının dayanması nəticəsində həmin toxumanın oksigensiz qalaraq zədələnməsidir. Böyüklərdə bu, əsasən ateroskleroz (damarların tutulması) səbəbilə olur. Uşaqlarda isə səbəblər fərqlidir. Mütəxəssislər bildirirlər ki, uşaqlarda infarkt halları bir sıra hallarda müşahidə oluna bilər. Misal üçün, Kavasaki xəstəliyi zamanı, bu, əsasən 5 yaşdan aşağı uşaqlarda rast gəlinən nadir iltihabi damar xəstəliyidir. Koronar arteriyalarda anevrizmalar yarana bilər, bu da infarkta səbəb ola bilər. Genetik hiperlipidemiya (qanda yağların çoxluğu), uşaq doğuşdan xolesterini yüksəkdirsə, bu damarların tez tutulmasına səbəb ola bilər. Familial hiperkolesterinemiya ağır formadadırsa, erkən yaşda infarkt mümkündür. Doğuşdan ürək qüsurları varsa, məsələn, koronar arteriyaların anormal yerləşməsi, stenozlar və s. Travma və ya ağır zərbə zamanı - sinə nahiyəsinə güclü zərbə (məsələn, idman zamanı) koronar arteriyanın zədələnməsinə səbəb ola bilər. Koaqulopatiya (qanın laxtalanma pozuntuları) - qan çox laxtalanırsa, damar tıxanıqlığı yarana bilər. Ciddi infeksiyalar və ya sistem xəstəlikləri - məsələn, COVİD-19 sonrası multisistem iltihabi sindrom (MIS-C) infarkt riskini artıra bilər.

Uşaq kardioloqları bildirirlər ki, inkişaf etmiş ölkələrdə belə hallar ildə 1 milyondan az



uşaqda qeydə alınır. Uşaq infarktlarında diaqnoz və simptomlar böyüklərdə olduğu qədər açıq olmaya bilər. İnfarkt şübhəsi varsa, EKQ, troponin testi, echo-kardioqrafiya mütləq aparılmalıdır. Uşaqlarda infarktın əlamətləri isə müxtəlif formada ola bilər. Uşaqlar ağrını böyüklər kimi izah edə bilmədiyindən simptomlar fərqli ola bilər: sinə ağrısı və ya sıxılma, təngnəfəslik, zəiflik, halsızlıq, mavi dodaqlar və ya barmaqlar, qusma, başgicəllənmə (xüsusilə körpələrdə), bayılma.

Pediatr Vaqif Qarayev 6 aylıq körpənin infarktdan ölməsi barədə yayılan məlumatlara münasibət bildirib. O, "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, yayılan xəbər natamamdır və hələlik tibb personalından heç bir rəsmi açıqlama verilməyib: "6 aylıq uşağın infarktdan ölməsinə inanmıram. Xəbər tam deyil, orada bir tibbi açıqlama yoxdur. Müvafiq müayinə nəticələri açıqlanmalıdır ki, biz əmin olaq - həqiqətən bu uşaqda infarkt olub, ya yox. İnfarkt nədir? Bu, ürəyin qidalanmasının pozulmasıdır, damar patologiyası ilə əlaqədar baş verir. Bəzən doğuşdan mürəkkəb ürək qüsurları ilə dünyaya gələn uşaqlarda da infarkt ola bilər".

Həkim qeyd edib ki, o da yalnız ehtimallarla danışa bilər, çünki həmin uşaqla bağlı müayinənin aparılıb-aparılmadığı məlum deyil: "Əgər ölüm səbəbi ürəklə bağlıdırsa, bu zaman ürək qüsurlarından şübhələnmək olar. Həmin uşaqla bağlı digər versiyalar da səsləndirilib, yəni başqa səbəbdən öldüyü bildirilir. Ola bilər ki, genetik olaraq ailəsində infarkt riski var. Uşaq vaxtından əvvəl doğulubsa, doğuşdan sonra küvezdə saxlanılıbsa, bu tip faktorlar da infarkt riskini yarada bilər. Bu səbəbdən, belə körpələrin doğulan kimi ürəkləri mütləq şəkildə müayinə olunmalıdır. Ən azı exo-kardioqramma aparılmalıdır".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

"Kontakt Home"dan şikayətlər artıb - bu dəfə...

Eyyub Hüseynov: ""Kontakt Home" istehlakçını dinləmir, boykot edilməlidir!"

Paytaxtda yaşayan Beyləqan sakini İbrahimov Rəşid Əli oğlu "Kontakt Home" mağazalar şəbəkəsinin "20 Yanvar" filialından aldığı kondisionerdə texniki nasazlıq olduğunu, problemin mağazanın servis xidməti əməkdaşının səhlənkarlığı nəticəsində yarandığını iddia edir. O, bu barədə Bakupost.az-a müraciətində bildirib.

Şikayətçinin sözlərinə görə, 2023-cü ildə "Kontakt Home"dan "Beko" markalı kondisioner alıb. Cihaz qısa müddət işlədikdən sonra sıradan çıxıb: "Keçən il kondisioner işləmədiyi üçün mağazanın ustası gəlib baxış keçirdi. Lakin cihazın tutumunu nəzərə almadan ona normadan 2 dəfə çox qaz vurdu. Bu isə texniki baxımdan ciddi səhvdir və kondisionerin sıradan çıxmasına səbəb oldu".

Rəşid İbrahimov bildirib ki, bir həftə ərzində dəfələrlə "Kontakt Home"a müraciət etsə də, heç bir nəticə əldə olunmayıb.

Tribunainfo.az xəbər verir ki, şikayətçi Vüqar İskəndərov da problemini sosial şəbəkələrdə ictimailəşdirib. O deyib ki, "Kontakt Home" mağazalar şəbəkəsinin göstərdiyi xidmət



və məhsullarının keyfiyyətsizliyi ilə bağlı şikayətlər səngimir. O bildirib ki, "Kontakt Home"dan aldığı kondisioner çatdırılıb, lakin hələ də gəlib quraşdıran olmayıb: "Müştəri xidmətlərindən tutmuş kondisioner ustasına qədər hamı çox peşəkar şəkildə yalan danışır".

Ötən həftələrdə isə müştəri Həvva Mehdiyeva bildirib ki, aldıqları kondisioner zədəli olub. Ancaq "Kontakt Home" müştərinin probleminə baxmayıb. Ümumiyyətlə, bu mağazalar şəbəkəsindən sosial şəbəkələrdə tez-tez şikayətlərə rast gəlmək olur. Bu dəfə isə mövsümlə bağlı olaraq daha çox kondisionerdən narazılıq olub.

Mövzu ilə bağlı **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** "Yeni Müsavat"a danışıb. Qurum sədri qeyd edib ki, artıq 10 ilə yaxındır "Kontakt Home" mağazalar şəbəkəsi ilə bağlı şikayətlər fasiləsiz olaraq daxil olur: "Hər gün bu qurumdan müxtəlif şikayətlər alırıq. Sonuncu belə müraciət Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsi, Şəhid Məmməd Zamanlı küçəsində yaşayan İsmayılov Rauf İsa oğlundan gəlib. O, 2023-cü ilin aprelində "Kontakt Home"un Bakıxanov-2 filialından 1 ədəd künc divanı, 1 ədəd ortalıq stolu və 8 ədəd oturacaq stulunu kreditlə alıb. Müqaviləyə əsasən, 2 il müddətinə hər ay 145 AZN ödəməli idi. Məhsulların nağd qiyməti 2300 AZN olduğu halda, kredit nəticəsində ümumilikdə 3500 AZN ödəməli olub. Bu da 1200 AZN artıq ödəniş deməkdir. Bunu təsdiqləyən möhürlü qəbzləri də mövcuddur.

Şikayətçi ilk 7 ay ödənişlərini vaxtında etsə də, əməkhaqqında gecikmə səbəbindən təxminən 9-10 günlük yubanmaya yol verib. O, bu barədə rəhbərliklə danışıb və ona problem olmayacağı bildirilib. Lakin 29 aprel 2025-ci ildə sonuncu ödənişi edərək 3500 AZN-lik borcu tam bağladıqdan sonra 5 iyul 2025-ci ildə ona zəng edərək guya 883 AZN "dəbbə pulu" borcu olduğu deyilib. Hətta "başınız pis ağrayacaq" kimi təhdidlər səsləndirilib, nalayiq ifadələrlə təhqir olunub.

Qeyd edim ki, qurumumuza daxil olan şikayətlərin ümumilikdə 80 faizi danışıqlar yolu ilə həll olunur, amma "Kontakt Home" ilə bağlı müraciətlərin cəmi 1 faizini bu yolla çözmək mümkün olur. Lakin bu şirkətlə bağlı şikayətlər çox mürəkkəbdir. Gülməli odur ki, "Kontakt Home" çox aqressiv reklam kampaniyaları aparır. Müştəri pulu verib malı alırsa, hər şey yaxşıdır. Amma pul verməyənlərə qarşı sərt münasibət göstərilir. Sonrakı mərhələdə isə istehlakçıların şikayətlərinə baxmaq, onları dinləmək kimi normal iş prinsipləri yoxdur.

Bir müddət əvvəl "Kontakt Home" "Music Gallery" mağazalar şəbəkəsini alıb və bundan sonra həmin mağaza ilə bağlı da şikayətlər daxil olmağa başlayıb.


Son 8 ildir ki, şikayətlərin sayına görə "Kontakt Home" birinci yerdədir. Əksər şikayətlər kreditlə alınan məhsullarla bağlıdır. Krediti tam ödəyən, amma cüzi gecikməyə görə yüksək məbləğdə cərimələnən, daha sonra məhkəmə qərarı ilə borclandırılan çoxlu sayda istehlakçı var".

AİB sədri əlavə edib ki, bu qədər şikayətə baxmayaraq, "Kontakt Home"un hüquqşünası və mətbuat katibi ilə yalnız bir dəfə görüşmək mümkün olub: "Əvvəllər İqtisadiyyat Nazirliyi yanında fəaliyyət göstərən, hansı ki, indi Prezident yanında olan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti adlanan qurumun rəhbərliyi ilə dəfələrlə görüşlərimiz olub, xahişlər etmişik. Amma hələ də nəticə yoxdur".

Sonda Eyyub Hüseynov istehlakçılara çağırış edib: "Mən istehlakçıları boykota səsləyirəm. O yalançı və aqressiv reklam kampaniyalarına inanmasınlar, reallığı nəzərə alsınlar, aldadıcı vədlərə uymasınlar".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

"Göyçə gölünün kənarında mahnılar oxuyardı" - illərlə axtarılan müğənninin 30 ildən sonra üzə çıxan taleyi





Bir vaxtlar - daha dəqiq desək, 1980-ci illərdə onun məlahətli, yumşaq səsi efirlərdən və konsert salonlarından gələr, onu publikaya sevdirərdi. Gitaradakı ifası ilə də seçilir, dinləyicilərin yaddaşında özünəməxsus iz buraxırdı. O, yunan mahnılarının yeganə və təkrarolunmaz ifaçısı idi. Lakin ötən əsrin 90-cı illərindən sonra bu müğənni qəfil yoxa çıxdı. Tamaşaçılar illərlə onu axtardı, harada olduğunu, nə işlə məşğul olduğunu bilmədi.

Söhbət bir dövrün tanınmış estrada müğənnisi Nizami İsmayılovdan gedir.

"Yeni Müsavat"ın əməkdaşı sənətkarın hazırda həyatda olub-olmadığını və necə bir həyat sürdüyünü öyrənmək üçün onun ailə üzvləri və yaxın dostları ilə əlaqə saxlayıb, Nizami İsmayılovun oğlu Qurban İsmayılov və sənətkarın məktəb illərindən dostu olmuş, xalq artisti Mübariz Tağıyevlə söhbətləşib.

Məlum olub ki, 90-cı illərin əvvəllərində ölkədəki sosial-siyasi dəyişikliklər fonunda sənətçi də diqqətdən kənarda qalıb, incik düşərək səhnədən uzaqlaşıb. Konsertlərə dəvət olunmadığına, unudulduğuna inanıb və bu səbəbdən konsert fəaliyyətinə son qoyub. Nizami İsmayılov dolanışığını təmin etmək üçün o dövrdə bir çox sənətkarlar kimi toy şənliklərində çıxış etməklə kifayətlənib. Bu illər ərzində onun səhnə ilə bütün əlaqəsi kəsilib və bir daha efirlərə dönməyib.

Xalq artisti Mübariz Tağıyev dostunu belə xatırlayır: "Nizami İsmayılov 1948-ci ildə İrəvanda anadan olmuşdu. Biz onunla M.F.Axundov adına 9 nömrəli məktəbdə birgə oxumuşuq. Sonra eyni ali məktəbdə - Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil aldıq. Onun həyat yolu olduqca maraqlı və rəngarəng idi. 1960-cı illərin sonlarında, 70-ci illərin əvvəllərində İrəvanda gənclərin sevdiyi bir kafedə gitara ilə özünü müşayiət edərək ifa edirdi. Çox böyük maraq var idi, insanlar onu alqışlayırdı. O, dostcanlı, mehriban və maraqlı insan idi. Təəssüf ki, səhnəni çox tez tərk etdi və toy mərasimlərinə yönəldi. Nizami təxminən beş il əvvəl dünyasını dəyişdi. Mən şəhərdə deyildim, Bakıya qayıdanda kiçik qardaşı bu xəbəri verdi. Çox pis oldum, çünki gümrah və həyatsevər bir insan idi. Dünyanın 32 ölkəsində olmuşdu, səkkiz dildə müxtəlif xalqların mahnılarını ifa edirdi. Kiçik yaşlarından atasının tövsiyəsi ilə tarda çalmağı öyrənmişdi. Uzun illər Azərbaycan televiziyasının solisti olub. Hazırda televiziyanın fondunda onun 30-a yaxın ifası saxlanılır".

Müğənninin oğlu Qurban İsmayılov atasının son illəri ilə bağlı bunları dedi: "Atam sonuncu dəfə 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması münasibətilə Gülüstan sarayında keçirilən tədbirdə çıxış etmişdi. O, 2020-ci il avqustun 2-də vəfat etdi. İki dəfə beyninə qan sızmışdı, müalicə aldı, amma üçüncü dəfə sızıntı olanda artıq onu xilas edə bilmədik. Son illərində toylara da getmirdi, sadəcə evdə olurdu. Vaxtilə işlədiyi dövrdə bir neçə obyekt almışdı, onları kirayə verməklə dolanırdıq. Hətta balaca bir mağazamız da var idi. Cavan vaxtlarında isə toylara gedərək bizi dolandırmışdı. Ailədə bir bacı, bir qardaş olmuşuq. 1994-cü ildən sonra o, səhnəyə qayıtmadı, yeni mahnılar yazdırmadı. Halbuki ona qədər bütün dövlət tədbirlərində iştirak edir, konsertlərdə çıxış edirdi. Təəssüf ki, atamın parlaq dövrü 90-cı illərlə bitdi".

Qurban İsmayılov atasının sənət irsindən də söz açdı: "Atamın ifaları hazırda yalnız Azərbaycan televiziyasının arxivində qorunur. Bizim əlimizdə isə heç nə yoxdur. Hətta gitarasını belə saxlamadı - bir gəncə bağışladı, dedi ki, artıq ona lazım deyil.

O, tələbə vaxtlarında Göyçə gölünün yaxınlığındakı restoranda gitara ilə canlı ifalar edirdi. O, niyə səhnəni birdən-birə tərk etdiyini bizə heç vaxt izah etmədi, bu haqda danışmazdı. İrəvana getməyi arzulayırdı. Qarabağın azad olunmasını görməyə ömrü yetmədi.

Çox qayğıkeş, anlayışlı ata idi, bizə heç vaxt çətinlik yaşatmayıb. Təəssüf ki, ailəmizdə heç kim onun musiqi yolunu davam etdirmədi".

❑ **Şahanə RƏHİMLİ,**
"Yeni Müsavat"

"Qarabağ"ı Çempionlar Liqasından 3, Avropa Liqasından 1 addım ayırır...

Qurban Qurbanovu finala bərabər oyun gözləyir; məsələ avqustun 12-də Bakıda həll olunacaq

Azərbaycan çempionu "Qarabağ" avqustun 5-i gecəsi bizi bir daha sevindirdi. Ağdam təmsilçisi Çempionlar Liqasının III təsnifat mərhələsində səfərdə Şimali Makedoniya klubu "Şkendiya"nı 1:0 hesabı ilə məğlub etdi. Bununla da "köhlən atlar" klublar arasında keçirilən yarışlarda ən mötəbər turnir sayılan liqanın qrup mərhələsinə bir addım da yaxınlaşdı.



"Qarabağ" avqustun 12-də doğma azarkeşlərin önündə meydana çıxacaq. Konfrans Liqasının qrupunu təmin edən "Qarabağ" bu mərhələni keçərsə, Avropa Liqasının qruplarını təmin etmiş olacaq və Çempionlar Liqasında pley-off oynayacaq. Orada isə onun rəqibi "Ludoqorets" (Bolqarıstan) - "Ferentsvaroş" (Macarıstan) cütünün qalib olacaq. "Qarabağ" ötən illərdə hər iki kluba qalib gəlib. Görünən odur ki, Ağdam təmsilçisinin tarixində ikinci dəfə bu mötəbər turnirin qruplarında oynamaq şansları öz əlindədir.

Qol.az xəbər verir ki, Q.Qurbanov matçdan sonra təşkil olunan mətbuat konfransında sona qədər dözdüklərinə görə futbolçularına təşəkkür edib.

Mütəxəssis Bakıdakı cavab oyununda daha diqqətli olmaqlarının lazım gəldiyini bildirib: "Hər bir halda bu cür oyunda belə bir komandaya qarşı qalibiyyətlə dönmək böyük bir üstünlükdür, amma biz Bakıda daha diqqətli və ciddi olmalıyıq".

"Qarabağ" qalib gəlsə də, oynanılan oyun heç də birmənalı qarşılanmayıb. Xüsusilə bəzi oyunçular tənqid hədəfi olublar.

Tanınmış idman yazarı Natiq Muxtarlı "Yeni Müsavat"a açıqlamasında "Qarabağ"ın Bakıdakı oyunda heç bir halda arxayınlaşmamalı olduğunu düşünür: ""Qarabağ" artıq Avropada 3 oyuna çıxıb. Bu 3 oyuna görə müəyyən qənaətlər formalaşıb. İki məqam sevindirməyə bilməz: Birincisi, hər kəs "Qarabağ"ın müdafiə xəttində problemlərin olduğunu deyirdi. "Problemli müdafiə xətti" bu 3 oyunda qol buraxmadı.

İkincisi, hər kəs "Qarabağ"ın hücum xəttində problemlərin olduğunu iddia edirdi. "Qarabağ" hər 3 oyunda qol vurmağı bacardı. Düzdür, sırf hücumçu mövqeyində oynayanlar qol vurmadı, amma bu, heç nəyi dəyişmir. Əsas odur ki, "Qarabağ" qol vurmağı bacarır, hətta hücumçusuz oynasa belə. Deməli, komandada oyun sistemi var. Bunlar müsbət məqamlardır.

Ancaq hücum mövqeyinə mütləq futbolçu lazımdır. Özü də bitiricilik funksiyası yüksək olan futbolçu. "Şkendiya" ilə oyunda bu məqam özünü açıq şəkildə göstərdi. "Qarabağ" xeyli qol şansı əldə etdi, amma son nöqtəni qoyan tapılmadı. Əslində bu, "Qarabağ"ın köhnə "xəstəliyidir".

N.Muxtarlı hesab edir ki, "Şkendiya" keçiləsi rəqibdir, amma bir qolluq üstünlük böyük fərq deyil: "Bakıdakı oyunda müdafiə diqqətli, hücum isə bitirici olmalıdır. Məncə, "Qarabağ" bu komandanı mübarizədən kənarlaşdırıb Avropa Liqasının qrupuna vəsiqəni təmin edəcək".

Amma hədəf Çempionlar Liqasıdır. Potensial rəqiblər də, tanışdırlar. Zəif deyillər, baxmayaraq ki, "Qarabağ" onların hər ikisinə qalib gəlib. Amma unutmayaq, Qurban Qurbanov özü etiraf edib: "Hər il Avropa futbolu ilə Azərbaycan futbolu arasındakı səviyyə fərqinin artdığını görürəm".

İdman mütəxəssisi Kənan Məstəliyev də "Qarabağ"ın bu mərhələni keçəcəyinə əmin olduğunu bildirib. Zubir və Nərimanın xeyli qol epizodunu boşa verdiyini deyən şərhçi qeyd edib ki, Addai "başsız atlı" idi və əsas heyətə yaramadığını göstərdi. "Cavab görüşündə daha rahat oynayacaq və bu rəqibi daha rahat keçəcəyik. Belə rəqibləri "Qarabağ" çox udub, yenə də udacaq".

Qol.az saytının baş redaktoru Aydın Bağırov isə hələ də şansları yarıbayarı görür: "Matç heç-heçə də bitə bilərdi. "Qarabağ" "Şkendiya"nı Şimali Makedoniyada məğlub etsə də (1:0), cavab matçı finala bərabər olacaq. Mənə görə, qalib gəlməsinə baxmayaraq, bizimkilərin mərhələ adlama şansı hələ də 50/50-yədir.

"Şkendiya" təhlükəli və hər cür yüksək hörmətə layiq rəqibdir. Təsdiq etdilər ki, Rumıniya FCSB-sini təsadüfən Çempionlar Liqasından kənarlaşdırmayıblar. "Qarabağ"la oyundakı təhlükəli hücumlarını yada salın".

A.Bağırov daha bir narahatedici məqam kimi Benzianın mövqeyində boşluq olduğunu qeyd edir: "Hələlik məcburiyyətdən o mövqedə oynadılan Addai onu əvəzləyə bilmir, Kadi hələ ki əvvəlki Kadi deyil. Vaxtında əvəzlənməsəydi, sırf məsuliyyətsizliyindən qırmızı vərəqə alacaqdı. İstənilən halda qələbə əla oldu".

Beləliklə, yeni mövsümdə "Qarabağ" 3 oyunun 3-də də uğurlu nəticə göstərib. Bütün azarkeşlər ölkəmizin ən titullu futbol komandasının uğurlarının davamını gözləyir.

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 137 (8747) 7 avqust 2025



Yayda niyə enerjisiz oluruq?

Hava nə qədər isti olarsa, bədəndə temperaturu normada saxlamaq, yaxınlarınızla ünsiyyət qurmaq və hətta gəzmək üçün enerji azlığı yaranır. Biz düşünürük ki, yayda enerjili olacağıq, amma əksinə olur. Terapevt Oleq Perkuşinin sözlərinə görə, belə sadə üsulla orqanizm istiyə uyğunlaşmağa çalışır. Sözün əsl mənasında enerjiyə qənaət edir, insanı fəaliyyət üçün gücdən məhrum edir ki, havanın istiliyindən orqanizm salamat çıxa bilsin. "İstidə damarlarda qanın hərəkəti və ürək dərəcəsi yavaşlayır. Hamısı ekstremal şəraitdə sağ qalmaq üçün mübarizə aparır.

Beləliklə, yayda özünüzü daha yaxşı hiss etmək üçün daha çox yatmaq lazımdır. Bu qayda həm böyüklər, həm də uşaqlar üçün eyni dərəcədə doğrudur.

Düzdür, buna əməl etmək üçün böyüklər uşaqlardan daha çox səy göstərməli olacaqlar. Ən azı otaqda səliqəli işıq, təmiz hava və səssizliyi təmin etmək lazımdır.

Mümkünsə, yaxşı olar ki, cib telefonunuzdakı zəngi bir saat söndürəsiniz. Bu rahatlamağa və daha yaxşı istirahət etməyə kömək edəcək. Nəticədə, siz təkcə sağlamlığınızı xilas etməyəcəksiniz, həm də məhsuldarlığınızı artıracaqsınız.

Əsasən qazsız adi su içmək, təbii materiallardan açıq rəngli paltarlar geyinmək, küçədə panama papağı geyinmək və ya çətir altına sığınmaq lazımdır".

Yatmazdan öncə naringi yemək olar?



Axşam saatlarında bəzən naringi yemək istəyi yaranır. Bu barədə championat.com yazır. Bəs bu meyvələri gecə yatmazdan öncə yemək olarmı? Bu suala rusiyalı qastroenteroloq Mariya Kombarova cavab verib. Mütəxəssis əmin edir ki, naringiləri təkcə gündüz deyil, gecələr də yemək olar. Ancaq yadda saxlamaq lazımdır ki, hər hansı digər qidalar kimi meyvələr yatmazdan iki saat əvvəl yeyilməlidir. Onun sözlərinə görə, naringi bağırsaqların, immunitetin, sinir sisteminin fəaliyyətinə müsbət təsir göstərən və müxtəlif xəstəliklərin riskini azaldan sağlamlıq üçün vacib olan vitaminlər, minerallar, lif və faydalı bitki birləşmələri ilə zəngindir.

Özbəkistanda kişi arvadına 13 illik alimenti avvəlcədən ödədi



Özbəkistanda bir kişi keçmiş arvadına 13 il müddətinə hesablanmış alimenti əvvəlcədən birdəfəyə ödəyib. Bu barədə Özbəkistan Baş Prokurorluğu yanında Məcburi İcra Bürosu məlumat verilib. Məlumata görə, Nukus şəhər sakini övladı yetkinlik yaşına çatana qədər bütün alimenti öncədən ödəmək arzusunda olduğunu bildirib. Növbəti 13 il ərzində ödəniləcək alimentin hesablanması aparılıb və 2 milyard 270 milyon 812 min sum (təxminən 178 min dollar) təşkil edib. Bu məbləğin büronun tarixində ən böyük məbləğ olduğu qeyd edilir.

NASA Aya nüvə reaktoru yerləşdirməyə hazırlaşır



ABŞ Ay səthində nüvə reaktorunun tikintisini sürətləndirməyi planlaşdırır. Məsələ ilə bağlı yaxın günlərdə ABŞ nəqliyyat naziri və NASA direktoru səlahiyyətlərini icra edən Şon Daffi bəyanat verəcək. Bu barədə "Politico" NASA-nın yüksəkvəzifəli rəsmisinə istinadla xəbər verir.

Bildirilib ki, bu təşəbbüs ABŞ-ın Rusiya və Çinin kosmos sahəsindəki təşəbbüslərinə cavab addımı kimi qiymətləndirilir. "Bütün məsələ ikinci kosmik yarışda qalib gəlməkdir", - deyə nəşrə danışan mənbə bildirib.

NASA-nın konkret vaxt planlaması hazırda agentliyin büdcəsinin kəskin ixtisarları fonunda müzakirə olunub. Eyni zamanda qeyd olunub ki, Şon Daffi bu məsələdə NASA-nın siyasətinə təsir göstərməyə çalışır. O, həmçinin Beynəlxalq Kosmik Stansiyanın daha tez əvəzlənməsi ilə bağlı göstəriş verib. Tramp administrasiyası isə kosmik proqramlara xüsusi önəm verir və bu sahəyə ayrılan vəsaitin əhəmiyyətli dərəcədə artırılmasını təklif edib. Qeyd olunub ki, nüvə reaktorları ilə bağlı direktiv 2030-cu ilə qədər 100 kilovatt gücündə reaktorun istifadəyə verilməsini nəzərdə tutur. Bu isə kosmonavtların Ay səthinə qayıtması üçün mühüm amil hesab olunur. Məqalədə qeyd olunur ki, belə reaktora ilk sahib olan ölkə Ayda "qadağan zonası" elan edə bilər.

Bunları bilirsinizmi?

* Qarışqa öz ağırlığının 50 qatını qaldıra bilər.
* Yarım kilo bal hazırlamaq üçün arılar iki milyondan çox çiçəkdən nektar toplamalıdırlar.
* Tarakanlar təxminən 250 milyon il yaşasalar da, heç bir dəyişikliyə məruz qalmayıblar.
* Kenqurular geriyə doğru yeriyə bilməzlər.
* Fillər tullanmayan yeganə məməlilərdir.
* Bir inək həyatı boyu təxminən 200.000 stəkan süd istehsal edir.
* Erkək pinqvinlər 4 aylıq inkubasiya dövründə heç nə yemirlər.
* Siçan susuz dəvədən də çox qala bilər.
* Köçəri quşlar "V" formasında uçur və beləliklə, sərf etdikləri enerjinin 23 faizini qənaət edirlər.
* Xəstələnməyən yeganə heyvan köpəkbalığıdır.
* Bir ildə dənizlərdən tutulan balıqların çəkisinin üç qatı dənizlərə atılır.
* Tibetdə çay fincanını iki əllə tutmamaq hörmətsizlikdir.
* Lobsterlərin mavi qanı var.
* Köstəbək bir gecədə 90 metrlik tunel qaza bilir.
* Bir ilbizin dişlərinin sayı 25 minə çata bilər.
* İlbizlər yemək yemədən üç il yatır.
* Zürafələrin səs telləri yoxdur.
* Qütb ayıları solaxaydır.
* Pişiklərin beynində 32 əzələ var.
* Kəpənəklər ayaqları ilə dad verirlər.

Həddindən artıq istidə bu qidaları qəbul edin

İstidə tez-tez soyuq bir şey içmək istəyinin olmasına baxmayaraq, bu içkilər susuzluğu çox zəif yatırır və insan bədəninin termorequlyasiya xüsusiyyətlərinə görə bədəni tez tərk edir.

Şirin içkilər qəbul etməyin də heç bir mənası yoxdur.

Onlar yalnız susuzluğun artmasına səbəb olur və əksəriyyəti zərərlidir. Xüsusilə mütəxəssislər istidə çox soyudulmuş olmayan adi su içməyi məsləhət görürlər. Suya limon, nanə və ya meyvə qarışdıra bilərsiniz.

İsti olduğunuz zaman bədən termorequlyasiyanı işə salır, tər buraxır, bu da bədəndən duz və digər iz elementlərini atır. Buna görə də, istidə düzgün qidaları yemək vacibdir ki, bu da orqanizmə mikroelementlərin balansını bərpa etməyə və susuzlaşdırma ilə mübarizə aparmağa kömək edəcəkdir.

Duz yeməyi dayandırmaq lazım deyil. Tərəvəz və meyvələrin çoxu ilk növbədə sudan ibarətdir, ona görə də onları yeyəndə nəinki vitamin və minerallar alırsınız, həm də bir az maye içirsiniz.

Belə ki, həkimlər isti havalarda xiyar (suyun nisbəti 96%-ə çatır), pomidor (93%), qarpız (90%), çiyələk (90%), qreypfrut (88%), ərik və alma (85%), albalı və gilas (82-83%) yeməyi tövsiyə edir.

Həkimlər həmçinin yay pəhrizinizə soyuq şorbalar əlavə etməyi məsləhət görürlər - onlar çoxlu qida maddələrini ehtiva edir və eyni zamanda orqanizmin su balansını doldurur.

Məşhur cərrah açıqladı: istifadə etməyin...

Hər yaşda gənc görünən sıx, hamar və canlı dəriyə sahib olmaq hər kəsin arzusudur. Son illərdə sosial mediada bir çox gözəllik trendləri ortaya çıxır. Onlardan biri də kətan toxumu maskasıdır. Bu maska "təbii botoks inyeksiyası" kimi təsvir edilir. Maskanın qırışları və incə xətləri yox etdiyi iddia edilir. Maraqlıdır, bəs görəsən, kətan toxumu maskası həqiqətən botox qədər təsirli ola bilərmi?

Kaliforniya Universitetində dermatoloji cərrah olaraq çalışan Isaac Neuhaus kətan toxumunun dəridə qırışları yox etmədiyini bildirib: "Kətan toxumu orqanizm üçün çox faydalıdır. Lakin bütün problemlərin dərmanı deyil. Botoks kimi dəridəki qırışları yox etmə təsiri qətiyyən yoxdur".

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəllifərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500